# ERMƏNİSTAN KONSTİTUSİYASI DƏYİŞDİRİLMƏLİDİR

Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşdə ATƏT-in Minsk qrupunun ləğv edilməməsi ilə bağlı Ermənistanın mövqeyinin heç bir halda başadüşülən olmadığını bildirib.

- Azərbaycan-Türkiyə qardaşlığının və strateji müttəfiqliyinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı ölkələrimizin daim bir-birinin yanında olduqlarını qeyd edib. Prezident İlham Əliyev regional vəziyyətə toxunaraq deyib ki, Azərbaycan bölgədə davamlı sülhün təmin olunmasının tərəfdarıdır.
- Dövlət başçısı vurğulayıb ki, bunun üçün özünün artıq dəfələrlə qeyd etdiyi kimi, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır və Konstitusiya dəyişdirilməlidir. Azərbaycan Prezidenti deyib ki, artıq keçmişin qalığı olan Minsk qrupu ləğv edilməlidir.

SƏHİFƏ 2-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

31 AVQUST ŞƏNBƏ 2024 I 33 (4184) Qiyməti - 40 qəpik www.kaspi.az





## FRANSA QƏRBİN REPRESSİV DƏYƏNƏYİ ROLUNDA

- Fransa boyda dövlət ABŞ-nin "arxa bağçası"na çevrilib, okeanın o tayından gələn təlimatların icraçısı olub. Axı hamı bilir ki, Durovun saxlanılması sifarişi Vaşinqtondan gəlib və siyasi motivlidir.

SƏHİFƏ 4-də





## PROBLEMLƏR İÇİNDƏ BOĞULAN AVROPA

- Avropa ciddi kataklizmlərlə üzləşib və qurum daxilində sülh deyil, müharibə və sabitsizlik meylləri artıb. Mənəvi geriləmə və nihilizm səbəbindən Qərbdə mövcud sosial-siyasi sistem effektiv rolunu itirməyə başlayıb.

SƏHİFƏ 5-də

### BÜTÜN ƏRAZİLƏRİMİZİ ƏHATƏ EDƏCƏK İLK PARLAMENT SEÇKİLƏRİ

# AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİ SEÇİR



İlk dəfədir ki, bütün suveren ərazilərimizdə Milli Məclisə seçkilər keçiriləcək. Bu tarixi seçkilərdə 125 deputat mandatı uğrunda ümumilikdə 990 namizəd mübarizə aparır.

**125 YERƏ 990 NAMİZƏD İDDİALIDIR**

Avqustun 31-i bütün ölkə ərazisində "sükut günü" sayılır. Bazar günü isə 125 deputat mandatı uğrunda ölkə üzrə ümumilikdə 990 namizəd yarışacaq. Xatırladaq ki, deputatlığa 1052 nəfərin namizədliyi qeydə alınsa da, sonradan 61 nəfər namizədliyini geri götürüb.

**1 000 MƏNTƏQƏDƏ KAMERALAR QURAŞDIRILIB**

Seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması xüsusi diqqətdə saxlanılıb. Bu məqsədlə 1 000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Veb-kameralar vasitəsilə seçki məntəqələrində səsvermə günü proseslər hamı üçün açıq platformada canlı nümayiş etdiriləcək.

SƏHİFƏ 3-də





## ŞƏKƏR XƏSTƏLƏRİNƏ ŞAD XƏBƏR

- Ölkəmizdə insulin çatışmazlığı faktı ilə bağlı iddialar rəsmi olaraq təsdiqlənib. Şəkərli diabet xəstələrinin müvafiq dərman vasitəsi ilə təminatını yaxşılaşdırmaq üçün ölkə daxilində insulin istehsalına başlanılacaq.

SƏHİFƏ 12-də



## "SÜNİ İNTELLEKTDƏN QAÇIŞ YOXDUR"

- Orxan Abdullayev: "Yeddi illik xaricdə təhsil turum məni ən azı 70-80 professorla qarşılaşdırıb və onların dərs metodlarını, tədris üslublarını müşahidə etmişəm. Bu təcrübələri Qarabağda tətbiq etmək şansı məni sevindirir".

SƏHİFƏ 8-9-da



## NEFTDƏ SABİTLƏŞMƏ, QAZDA ARTIM

- Neft hasilatımız geriləmə dövrünü yaşayır. Bu proses xarici ticarət dövriyyəmizə də öz təsirini göstərir. Ekspertlər bundan sonrakı yaxın gələcəkdə neft hasilatında artım olmayacağını düşünürlər.

SƏHİFƏ 6-da

### Şagirdlər nə relyefi dərd edib, nə də havanı

# UCQAR KƏND MƏKTƏBİNİN İNANILMAZ UĞURU



Məqsədlərinə gedən yolda nə relyefi dərd ediblər, nə də havanı. Nə qar onlara əngəl olub, nə də boran. Belə ki, bu il ucqar dağ kəndində yerləşən orta məktəbin 12 məzunundan 11-i ali təhsil müəssisələrinə qəbul olub. Yardımlı rayonu Şəfəqli kənd Ş.Şabiyev adına tam orta məktəbin məzunlarından dördü qız, yeddisi oğlan olmaqla, tələbə adını qazanıb.

Ucqar kənd məktəbində yüksək nəticə göstərərək seçilməyi fərqlənən məktəbin direktoru Ramin Qənbərovla söhbətləşdik.

SƏHİFƏ 11-də



## ZARAFATA GÖRƏ BAŞI BƏLALAR ÇƏKMİŞ AKTYOR

- Kino və teatr aktyoru Fazil Salayev cəmi 46 il yaşasa da oynadığı rolları, dərin yumor hissi ilə tamaşaçıların yaddaşında əbədi qalıb. İllər keçsə də, onun yaratdığı rollara və filmlərə maraq itməyib.

SƏHİFƏ 15-də



# İlham Əliyev Aleksandr Lukaşenkoya zəng edib

Avqustun 30-da Prezident İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edib.

Dövlət başçısı Aleksandr Lukaşenkonu ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı və fəaliyyətində uğurlar arzulayıb.

Belarus Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Yüksək səviyyədə təmasların əhəmiyyətinə toxunularaq bu il Belarus Prezidentinin ölkəmizə dövlət səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfə verdiyi bir daha qeyd edilib.

Dövlət başçıları əməkdaşlığımızın perspektivlərinə dair və gələcək təmaslarla bağlı fikir mübadiləsi aparıblar.



# Azərbaycanla Ermənistan arasında daha bir razılaşma

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün Protokoluna uyğun olaraq, Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb.

Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanıb.

Hazırda Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlətdaxili prosedurların keçirilməsinə başlayıblar.

# ERMƏNİSTAN KONSTİTUSİYASI DƏYİŞDİRİLMƏLİDİR



Prezident İlham Əliyev Minsk qrupunun ləğv edilməməsi ilə bağlı Ermənistanın mövqeyinin heç bir halda başadüşülən olmadığını deyib. Çünki, əgər münaqişə keçmişdə qalıbsa və Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini ifadə edirsə, onda keçmişin qalığı olan Minsk qrupunun saxlanmasına nə ehtiyac var?!

Prezident İlham Əliyev avqustun 30-da Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən Şamil Ayrım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.

**QAFQAZIN PARLAYAN ULDUZU**

Qonaq Türkiyə Böyük Millət Məclisinin ölkəmizdə keçiriləcək parlament seçkilərində böyük heyətlə müşahidəçi statusunda iştirak edəcəyini bildirib. Bu seçkilərin Azərbaycanın bütün ərazisində keçirilən ilk parlament seçkiləri olmasının önəminə toxunan Şamil Ayrım suverenliyimizin və ərazi bütövlüyümüzün tam təmin edilməsinin əhəmiyyətini vurğulayıb.

O, Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə təşkilata üzv ölkələrin başçıları ilə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidentinin bir masada olmasına və Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Şamil Ayrım vurğulayıb ki, Azərbaycan və Türkiyə prezidentlərinin qardaşlığı və dostluğu ölkələrimiz arasında münasibətlərin yol xəritəsini müəyyənləşdirir. Azərbaycanın inkişafının və əldə etdiyi nailiyyətlərin Türkiyədə böyük qürur hissi doğurduğunu deyən qonaq ölkəmizin Qafqazın parlayan ulduzu olduğunu vurğulayıb.



## MİNSK QRUPU TAMAMİLƏ LƏĞV EDİLMƏLİDİR

Azərbaycan-Türkiyə qardaşlığının və strateji müttəfiqliyinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı ölkələrimizin daim bir-birinin yanında olduğunu qeyd edib.

Prezident İlham Əliyev regional vəziyyətə toxunaraq deyib ki, Azərbaycan bölgədə davamlı sülhün təmin olunmasının tərəfdarıdır. Dövlət başçısı vurğulayıb ki, bunun üçün özünün artıq dəfələrlə qeyd etdiyi kimi, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır və Konstitusiya dəyişdirilməlidir. Azərbaycan Prezidenti vurğulayıb ki, artıq keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan təsisatlar tamamilə ləğv edilməlidir.

Dövlət başçısı Minsk qrupunun ləğv edilməməsi ilə bağlı Ermənistanın mövqeyinin heç bir halda başadüşülən olmadığını deyib. Çünki əgər münaqişə keçmişdə qalıbsa və Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini ifadə edirsə, onda keçmişin qalığı olan Minsk qrupunun saxlanmasına nə ehtiyac var?!

## ÖLKƏMİZƏ QARŞI HAQSIZ VƏ ƏDALƏTSİZ MÜNASİBƏT

Dövlətimizin başçısı deyib ki, görünür, Ermənistan sülh müqaviləsində və regionda davamlı sülhün əldə edilməsində maraqlı deyil. Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan qəsdən vaxt uzadır, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir.

Bir sıra Qərb təsisatlarında anti-Azərbaycan qüvvələrin ölkəmizə qarşı haqsız və ədalətsiz münasibətinə toxunan dövlət başçısı vurğulayıb ki, Avropa Şurası Parlament Assambleyasında bizim əleyhimizə olan mövqe bilavasitə öz ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etməyimizlə əlaqədardır.

Prezident İlham Əliyev Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə davamlı şəkildə dəstək göstərdiyini qeyd edib, Türk Dövlətləri Təşkilatının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə Şimali Kipr Türk Cümhuriyyətinin də iştirak etməsinin önəminə toxunub.

Görüşdə Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun üzvləri çıxış edərək, ölkələrimizin daim bir-birinin yanında olduqlarını, Azərbaycanın gücünün Türkiyənin, Türkiyənin gücünün isə Azərbaycanın gücü olduğunu vurğulayıblar, Azərbaycan-Türkiyə qardaşlığının əhəmiyyətini qeyd ediblər.

# AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİ SEÇİR

İlk dəfədir ki, bütün suveren ərazilərimizdə Milli Məclisə seçkilər keçiriləcək. Bu tarixi seçkilərdə 125 deputat mandatı uğrunda ümumilikdə 990 namizəd mübarizə aparır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Sentyabrın 1-də Milli Məclisə seçkilər keçiriləcək. Qanunverici orqana keçiriləcək bu seçkiləri əvvəlkilərdən fərqləndirən başlıca cəhət onun müstəqil Azərbaycan tarixində bütün suveren ərazilərimizi əhatə edəcək ilk parlament seçkiləri olmasıdır. Diqqət çəkən məqam həm də odur ki, artıq öz doğma yurdlarına qayıtmış minlərlə keçmiş məcburi köçkün də Milli Məclisdə onları təmsil edəcək şəxsi məhz doğma yurdlarındakı səsvermə məntəqələrində səs verməklə seçəcəklər.

**125 YERƏ 990 NAMİZƏD İDDİALIDIR**

Qeyd edək ki, seçkilərin təbliğat-təşviqat kampaniyası artıq başa çatıb. Avqustun 31-i bütün ölkə ərazisində "sükut günü" sayılır. Qanunvericiliyə əsasən, parlament seçkisi ilə əlaqədar həmin gün seçkiqabağı təşviqat aparıla bilməz. Bazar günü isə 125 deputat mandatı uğrunda ölkə üzrə ümumilikdə 990 namizəd yarışacaq. Xatırladaq ki, deputatlığa 1 052 nəfərin namizədliyi qeydə alınsa da, sonradan 61 nəfər namizədliyini geri götürüb. Bir namizəd isə avtomobil qəzası nəticəsində vəfat edib.

Seçki prosesinin əsas mərhələlərindən sayılan təbliğat-təşviqat kampaniyası zamanı şikayət və etirazlar qeydə alınmayıb. Təşviqat kampaniyası zamanı namizədlərin seçicilərlə birbaşa görüşlərinin, ünsiyyətinin təşkili məqsədi ilə Mərkəzi Seçki Komissiyası (MSK) müvafiq qurumlarla birgə 5 min 506 yer ayırıb. Onlardan 3 469-u açıq, 2 037-si isə qapalı məkan olub.

**ONLAR İLK DƏFƏ SƏS VERƏCƏKLƏR**

İlk dəfə səsvermə hüququ əldə edən vətəndaşların da sayı maraq doğurur. MSK-nın məlumatına əsasən, bu say 51 min 141 nəfər təşkil edir. Bundan əlavə, seçkilərdə səsvermə prosesində vətəndaşların iştirakçılıq səviyyəsinin aktiv olması üçün bir sıra güzəştlər də nəzərdə tutulub. Belə ki, bəzi seçicilərin şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti başa çatsa da, bu, onların səs verməsinə məhdudiyyət yaratmayacaq. Seçicilər həmin vəsiqə ilə məntəqəyə gedərək səsvermə hüququndan maneəsiz istifadə edə biləcəklər.

**SEÇKİLƏRİ NƏ QƏDƏR MÜŞAHİDƏÇİ İZLƏYƏCƏK?**

Milli Məclisə növbədənkənar seçkilərə həm daxili, həm də xarici maraq olduqca böyükdür. Bunu qeydiyyatdan keçən müşahidəçilərin sayı da təsdiqləyir. MSK-nın açıqladığı statistikaya əsasən, növbədənkənar parlament seçkilərini izləmək üçün 604 nəfər beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. Onlardan 227 nəfəri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidəçiləridir. Bundan əlavə, seçkilərə qatılacaq siyasi qüvvələri və namizədləri təmsil edəcək 111 min 200-ə yaxın yerli müşahidəçi də qeydə alınıb. Onlardan 65 minə yaxını 25 siyasi partiyanı təmsil edir.

**BU ƏRAZİLƏRDƏ 54 MƏNTƏQƏ FƏALİYYƏT GÖSTƏRƏCƏK**

Qeyd etdiyimiz kimi, budəfəki parlament seçkiləri ilk dəfə olaraq işğaldan azad edilmiş ərazilərdə də təşkil olunacaq. Həmin ərazilərdə 54 seçki məntəqəsi fəaliyyət göstərəcək. Lakin bu, son hədd deyil. MSK sədri Məzahir Pənahov mətbuata açıqlamasında bildirib ki, Böyük Qayıdış prosesi genişləndirildikcə, məntəqələrin də sayı artırılacaq. İşğaldan azad edilmiş ərazilərdə ümumilikdə 42 mindən çox seçici səsvermə hüququndan istifadə edəcək.

**1 000 SEÇKİ MƏNTƏQƏSİNDƏ VEB-KAMERALAR QURAŞDIRILIB**

Hazırlıq prosesi dönəmində Milli Məclisə seçkilərdə aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin olunması xüsusi diqqətdə saxlanılıb. Bu məqsədlə bütün ölkə coğrafiyasını əhatə edən 1 000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Veb-kameralar vasitəsilə seçki məntəqələrində səsvermə günü prosesləri hamı üçün açıq platformada canlı nümayiş etdiriləcək, maraqlı subyektlər seçki məntəqələrinə getmədən belə gün ərzində prosesləri əvvəldən axıradək fasiləsiz müşahidə imkanı qazanacaqlar.






## FİZİKİ MƏHDUDİYYƏTLİLƏR ÜÇÜN YARADILAN ŞƏRAİT

Səsvermə hüququndan bütün vətəndaşların yararlanmasını təmin etmək məqsədi ilə həssas qrupların, əlilliyi olan şəxslərin də səsvermə prosesində iştirakına şərait yaratmaq üçün müvafiq addımlar atılıb. Belə ki, 2 471 seçki məntəqəsində əlil vətəndaşlar üçün 2 471 pandus quraşdırılıb. Eyni zamanda, görmə qabiliyyətində müəyyən problemlər olan seçicilər üçün Brayl əlifbası ilə trafaret çap edilib. 125 trafaret hazırlanıb və istisnasız bütün seçki məntəqələrinə çatdırılıb.

**"EXİT-POLL"U ONLAR KEÇİRƏCƏK**

Seçkilərdə "exit-poll" keçirəcək təşkilatların da adı artıq bəllidir. MSK-nın qərarına əsasən, bu hüquq bir neçə təşkilata verilib. Belə ki, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası "ORACLE ADVISORY GROUP" (Amerika Birləşmiş Ştatları) təşkilatı ilə, "Tərəqqi" Sosial Tədqiqatlar İctimai Birliyi isə SWG S.P.A Tədqiqatlar Şirkəti (İtaliya) ilə birlikdə seçkilərdə "exit poll" keçirmək niyyətini ifadə edib. "Sosioloji Tədqiqatlar Mərkəzi"nin də "exit-poll"a bağlı müraciətinə müsbət cavab verilib.

Qeyd edək ki, Prezident İlham Əliyev iyunun 28-də VI çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib.

# FRANSA QƏRBİN REPRESSİV DƏYƏNƏYİ ROLUNDA

Fransa boyda dövlət ABŞ-nin "arxa bağçası"na çevrilib, okeanın o tayından gələn təlimatların icraçısı olub. Axı hamı bilir ki, Durovun saxlanılması sifarişi Vaşinqtondan gəlib və siyasi motivlidir.



RÜSTƏM QARAXANLI




"Teleqram"ın təsisçisi və sahibi, iş adamı Pavel Durovun Fransada həbsi Qərb üçün söz azadlığı və demokratiya kimi anlayışların siyasi alət, digər dövlətlərə qarşı təzyiq vasitəsi olduğunu bir daha sübut etdi. Bu bəşəri məfhumlar diktəni qəbul etməyən xalqlar və dövlətlərin qaralanması, gözdən salınması niyyəti ilə ABŞ və Avropanın utanmadan və heç bir sıxıntı çəkmədən istifadə etdiyi dəyənəkdir. Əslində, həm də kollektiv Qərbin dəyərlər sisteminin içindən çürüdüyünün bariz göstəricisidir.

Aydındır ki, Fransa hökuməti üçün hazırda həbsdən buraxılan, ancaq ölkəni tərk etməsinə qadağa qoyulan Durova qarşı istənilən ittihamı irəli sürmək çətin məsələ deyil. Ancaq onun Paris aeroportunda həbs edilməsi ortaya bəzi suallar çıxarır.

### SUAL 1: BU, SÖZ AZADLIĞININ BOĞULMASI DEYİLMİ?

Durovun həbsindən bir neçə gün keçməsinə baxmayaraq, nə ABŞ Dövlət Departamenti, nə Avropa Birliyi, nə də onların nəzarətində olan və bizim kimi xalqlara qarşı təzyiq vasitəsi qismində istifadə edilməyə hər an hazır "hüquq müdafiə" strukturlarından heç bir səs çıxmır. Durova qarşı ehtimal edilən ittihamların əksəriyyəti "Teleqram" sosial şəbəkəsinə görədir. Bu platformanın bir milyard nəfərə yaxın auditoriyası var. Azərbaycanda 200-300 nəfər izləyicisi olan, sosial şəbəkə hesablarından dövlətə qarşı olmazın həqarətlərini yağdıran birinin istintaqa cəlb edilməsi adları çəkilən strukturların yuxusuna haram qatır və dərhal ayağa qaldırır. Ancaq nədənsə Durov çapda bir şəxsin həbsi Culian Assanj və bir-iki antiqlobalist jurnalist və hüquq müdafiəçisindən başqa heç kimin "diqqətini cəlb etmir".

### QƏRB CƏMİYYƏTİ SADƏCƏ SUSUR

Azərbaycanda və bizim kimi ölkələrdə istənilən belə bir addım ABŞ və Avropanın "demokratiya carçıları"nın dərhal hərəkətə keçməsinə səbəb olur. Fransanın bu repressiv davranışı isə heç kimdə nəinki qınaq yaratmır, "demokratiya bastionu" olan Qərb cəmiyyəti sadəcə susur. Avropada və ABŞ-də hər gün onlarla söz azadlığının boğulması halı baş verir. Fransada sosial etirazları işıqlandıran media nümayəndələri döyülür və həbsə atılır. ABŞ-də ümumi konyukturdan bir qədər fərqli mövqe nümayiş etdirən, "arzu olunmayan" şəxsdən müsahibə götürən jurnalist işindən qovulur. Media əhalinin manipulyasiyasına xidmət edən psixoloji silaha çevrilib. Bununla belə, heç kimi azad sözün boğulmasına görə qınamırlar.

"Siyasi islam"la mübarizə adı altında müsəlman dünyasına qarşı səlib yürüşünə çıxmış Qərb, İranı sivilizasiyaya başlıca təhdid gördüyü halda Azərbaycanda dövlətçiliyə qarşı əməllərdə ittiham edilən dini ekstremistlərin həbsini "din azadlığının boğulması" kimi qələmə verir. Əvvəllər bu kimi halların mücərrəd də olsa izahı olur, təlimatlandırılmış sözçülər düşdükləri dalanlardan çıxmaq üçün hansısa qeyri-müəyyən bəyanatlarla baş aldatmağa çalışırdılar. Dünya ABŞ-nin "İraqda kimyəvi silah var" kimi "arqument"ləri ilə aldadılırdı. İndi belə bəhanələrə inanan da yoxdur, heç Qərbin özü də buna ehtiyac görmür.




## SUAL 2: "META"YA OLAR, "TELEQRAM"A YOX?

Durovun həbsi göstərir ki, Qərb maraqlarına toxunan, qanuni, ya qanunsuz, - istənilən maneəni ən qəddar vasitə ilə neytrallaşdırmağa hazırdır. Halbuki "Teleqram" bu seqmentdə fəaliyyət göstərən platformalardan heç də ən böyüyü və nüfuzlusu deyil. Son statistikaya görə, ilk onluğun sonlarındadır. Görəsən, üzərindən hansısa cinayətkar əməllər törədilən, maliyyə maxinasiyaları, yaxud terror əməliyyatları planlaşdırılan digər bu kimi platformalar yoxdur? "Ərəb baharı", "rəngli inqilablar" kodu ilə yüzmin-lərlə insanın qətlə yetirilməsi, ölkələrin viran edilməsi, böyük şəhərlərin yer üzündən silinməsi, milyonlarla qaçqının piyada Yaxın Şərqdən Avropaya doğru qaçması, dənizlərdə boğulması ilə nəticələnən qlobal facia "Meta"nın nəzarətində olan sosial şəbəkələr üzərindən törədilməmişdi? Misirdə Hüsnü Mübarəkə qarşı qiyamda "Facebook"un iştirakı unudulub? Ölkədə internet qapadılsa da, "Facebook"un işləməsi üçün ələhiddə xarici müdaxilələr edilməmişdi?

### "META" SEÇKİLƏRİN GEDİŞATINA MÜDAXİLƏ EDƏRSƏ...

Bu günlərdə ABŞ prezidentliyinə namizəd olan Donald Tramp bəyan edib ki, əgər "Meta" seçkilərin gedişatına müdaxilə edərsə, platformanın sahibi Mark Sukerberqi ömürlük həbsə atacaq. Diqqət edin: söhbət prezidentliyə namizədin Sukerberqə hədə-qorxu gəlməsindən getmir. Problem "Meta"nın prezident seçkilərinə müdaxilə ehtimalındadır və Tramp bunu rəsmən dilə gətirir. Bəyəm seçkilərin aqibətini dəyişmək cinayət deyil? Görəsən, Durov bütün bunlardan daha qorxulu cinayətlərin müəl-lifidir?



Emmanuel Makron

## SUAL 3: MAKRON RÜSVAY OLMAQ ÜÇÜN DAHA NƏ ETMƏLİDİR?

ABŞ-nin və Avropanın lal olmasını bir kənara qoysaq, dünyaya meydan oxumaq istəyən, ağıl öyrədən Fransa prezidenti Emmanuel Makronun növbəti dəfə bir siyasi lider kimi biabır olması maraq doğuran digər məqamdır. Görəsən, fransız xalqı özünə nə vaxtsa Makrondan rüsvayçı prezident seçəcəkmi? Daxili, sosial, xarici siyasətdə dəfələrlə biabır olmuş, öz vətəndaşları tərəfindən döyülərək aşağılanmış Fransa prezidenti atdığı addımları qəsdənmi edir, yoxsa nə vaxtsa yaşadığı hansısa kompleksinə görəmi?

Bu suallara cavabı Paris olimpiadasının açılış mərasimində axtarmaq olar. Dünya tərəfindən qınanılan mərasimə haqq qazandıran və bunu ölkəsinin əldə etdiyi nailiyyət, nemət adlandıran bir prezidentin repressiv hikkəsi izaholunandır. Belə şəxslərin əslində çox aqressiv olmalarını şərh edən psixoloji təlimlər, əsərlər və psixoloqlar var. Ancaq bundan da ağırı odur ki, Fransa boyda dövlət ABŞ-nin "arxa bağçası"na çevrilib, okeanın o tayından gələn təlimatların icraçısı olub. Axı hamı bilir ki, Durovun saxlanılması sifarişi Vaşinqtondan gəlib və bu, siyasi problemdir.

# PROBLEMLƏR İÇİNDƏ BOĞULAN AVROPA

Avropa ciddi kataklizmlərlə üzləşib və qurum daxilində sülh deyil, müharibə və sabitsizlik meylləri artıb. Mənəvi geriləmə və nihilizm səbəbindən Qərbdə mövcud sosial-siyasi sistem effektiv rolunu itirməyə başlayıb.



AZƏR NURİYEV




Avropa sürətlə problemlərə doğru sürüklənir. Böyük Britaniyanın Avropa İttifaqını (Aİ) tərk etməsinin ardınca başlayan proses güclənməkdədir. Ölkələr müstəqilliyə can atır, ümumi problemləri öz problemi kimi qəbul etməkdən qaçırlar. Artıq vəziyyətin təhlükəli həddə olmasını liderlər də etiraf edirlər. Məsələn, Fransa prezidenti Emmanuel Makron bildirib ki, əgər Avropanı Çin, yaxud ABŞ ilə müqayisə etsək, o zaman vəziyyətin elə də yaxşı olmadığını görərik: "Biz biznes modelimizi dəyişməliyik. Biznes modelimiz Rusiyadan ucuz enerji resursları, Çinə əla ixrac bazarı və Mərkəzi Avropada ABŞ-nin geosiyasi çətiri altında istehsalın təşkili üzərində qurulub. Amma Avropa modelinin bu sütunları öz fəaliyyətini dayandırır".

Avropa İttifaqı diplomatiyasının rəhbəri Jozep Borrel də analoji fikir səsləndirib. O, "Avropanın "ölə" biləcəyi ilə bağlı xəbərdarlıqların artdığını vurğulayıb.

### CİDDİ KATAKLİZMLƏRLƏ ÜZ-ÜZƏ

Dünyaca məşhur "Al Mayadeen" nəşri də Aİ-nin gələcəyi ilə bağlı bədbin proqnoz dərc edib. Bildirilir ki, liderlərin qitənin bu günü və sabahı ilə bağlı səsləndirdikləri fikirlər təhlükənin ciddiliyindən xəbər verir: "İqtisadi və siyasi çətinliklərlə yanaşı, ən ciddi problemlər sırasında irqi ayrı-seçkilik və mərkəzdənqaçma meyllərinin artması da qeyd olunmalıdır. Avropa dövlətlərinin cəm olduğu Aİ daxilində irqi ayrı-seçkiliyin sivilizasiya və ənənəvi dəyərlərin üzərində triumfu müşahidə olunur".

Bəli, Avropa ciddi kataklizmlərlə üzləşib və qurum daxilində sülh deyil, müharibə və sabitsizlik meylləri artıb. Mənəvi geriləmə və nihilizm (hər şeyin inkarı) səbəbindən Qərbdə mövcud sosial-siyasi sistem effektiv rolunu itirməyə başlayıb. Aparıcı media orqanının gəldiyi qənaət bundan ibarətdir ki, bütün bunlar ciddi nəticələrə gətirib çıxaracaq. Yeni dünya düzəni və qüvvələr balansı, xüsusi ilə Ukraynada mövcud münaqişə fonunda pozulmaq üzrədir. Nihilizm nəinki siyasətdə, iqtisadiyyatda da hiss olunmaqdadır. Rusiyaya qarşı tətbiq olunan sanksiyalar bumeranq kimi Avropa iqtisadiyyatına da zərbə vurub. Daha çox miqrantlarla bağlı problemlər özünün pik həddinə çatıb. İttifaqa daxil olan ölkələr arasında bir çox məsələlərlə bağlı fikir ayrılıqları da mövcuddur. Artıq bir çox ölkələr müstəqil qərar qəbul etmək, Rusiyaya qarşı tətbiq edilən sanksiyalardan çıxmağa səsləyən bəyanatlar səsləndirirlər. Fransa Aİ daxilində Almaniya ilə ciddi fikir ayrılıqları yaşayır. Bir çoxları bu qənaətdədirlər ki, hadisələrin gedişi ölkələrin təşkilatdan uzaqlaşmasına səbəb olacaq. Ortada Böyük Britaniya nümunəsi də var.

## İRQİ AYRI-SEÇKİLİK PİK HƏDDƏ

Qeyd etdiyimiz kimi, ən ciddi problem Avropada irqi ayrı-seçkilik hallarının artmasıdır. Aİ-nin Afrika mənşəli insanların hüquqları üzrə agentliyinin apardığı sorğunun nəticələrinə görə, Avropada irqçilik güclənməkdədir. "The Guardian" xəbər verir ki, 13 ölkədən (Avstriya, Belçika, Danimarka, Finlandiya, Fransa, Almaniya, İrlandiya, İtaliya, Lüksemburq, Polşa, Portuqaliya, İspaniya və İsveç) 6 752 afrikaəsilli insanın iştirak etdiyi sorğuda iştirakçıların 45 faizi irqi ayrı-seçkiliklə üzləşdiyini deyib. 2016-cı ildə bu rəqəm 39 faiz olub. Həyatın müxtəlif sahələrində, o cümlədən məktəblərdə, əmək bazarında, mənzil və səhiyyədə bu ayrı-seçkilik daha yüksəkdir. Ən qorxulu vəziyyət ifrat sağçı partiyaların nüfuzunun artdığı Avstriya və Almaniyada qeydə alınıb. Avstriya və Almaniyada respondentlərin dörddə üçü (72% və 76%) son beş ildə ayrı-seçkiliyə məruz qaldığını bildirib. Qeyd olunur ki, "Almaniya üçün Alternativ" 2017-ci il federal seçkilərindən sonra ölkədə üçüncü ən böyük partiyaya və əsas müxalifətə çevrilib. 2021-ci ildə nəticələri bir qədər zəif olsa da, təşkilatın təsiri artmaqda davam edir.

## HƏRBİ XƏRCLƏRİ ARTIRMAQ MƏCBURİYYƏTİNDƏDİRLƏR



Jozep Borrel

İqtisadi böhran da ittifaq daxilində çatlar yaradır. Belə ki, son illərdə qlobal iqtisadi şoklar Avropanın həssaslığını artırıb. İqlim dəyişiklikləri, pandemiya, Ukrayna müharibəsi Aİ-nin idxal olunan enerjidən asılılığını artırıb. Yüksələn qiymətlər isə insanlara xüsusilə ağır zərbə vurub. Qurum özü-özünə aradan qalxmayacaq bir sıra çətin iqtisadi problemlərlə üzləşib.

Birincisi, qonşu regionlardakı təhlükəsizlik riskləri və ABŞ-nin Avropanı müdafiə etmək öhdəliyinin davamlılığına dair artan şübhələr Aİ-ni öz imkanlarını gücləndirməyə məcbur edir. Bu, həm də ümumi müdafiə xərclərinin əhəmiyyətli dərəcədə artması deməkdir.

Problemlər bununla da yekunlaşmır. Qitədə işsizlik orta hesabla 6,5%-ə yaxın olub. Bir sıra sahələrdə - süni intellektdən yarımkeçiricilərə və kvant hesablamalarına qədər - ABŞ və hətta Çin Avropanı çox geridə qoyur. Aİ innovasiya mərkəzi olmaq yolunda başqa maneələrlə də üzləşir. Bunlardan biri zəruri infrastrukturun, xüsusilə də süni intellekt modellərinin hazırlanması üçün lazım olan böyük hesablama gücünün olmamasıdır. Başqa bir maneə innovasiyaları dəstəkləyən mövcud vençur kapitalının və özəl kapital investisiyalarının olmamasıdır.

Beləliklə, Avropanı qarşıdakı dövrdə çox çətin sınaqlar gözləyir. Aİ daxilindəki birliyin nə dərəcədə qorunacağı qitənin üzləşdiyi problemlərin həllinə nə dərəcədə nail olacağından asılıdır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

NEFT HASİLATININ AZALMASININ QARŞISINI ALMAQ MÜMKÜNDÜRMÜ?

# NEFTDƏ SABİTLƏŞMƏ, QAZDA ARTIM

Neft hasilatımız geriləmə dövrünü yaşayır. Bu proses xarici ticarət dövriyyəmizə də öz təsirini göstərir. Ekspertlər bundan sonrakı yaxın gələcəkdə neft hasilatında artım olmayacağını düşünürlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 21 768.43 milyon dollara bərabər olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 16.8 faiz azdır. Bu barədə Dövlət Gömrük Komitəsinin açıqladığı məlumatda bildirilib. Son bir ildə ölkə üzrə ixrac 28.2 faiz azalaraq 12 900.98 milyon ABŞ dolları təşkil edib. Əksinə, idxal isə 8.2 faiz artaraq 8 867 milyon ABŞ dollarına yüksəlib. Xarici ticarət dövriyyəsində 4 033.78 milyon dollarlıq müsbət saldo yaransa da, bu, ötən ilin eyni dövrünə nisbətən 2.4 dəfə az olub. Rəqəmlərdən də gördüyümüz üzrə Azərbaycanın xarici ticarət dövriyyəsində azalmalar müşahidə olunur. Mütəxəssislər bu prosesi neft hasilatımızda baş verən azalmalarla əlaqələndirirlər. Bəs neft hasilatımızdakı geriləmə nə vaxta kimi davam edəcək? Bu prosesin qarşısının alınması üçün hansı işlər görülməlidir?

**ENERJİ MƏHSULLARININ QİYMƏTİ AZALIB**

İqtisadçı-ekspert Vüqar Bayramov bildirdi ki, neft hasilatı azalıb, qaz hasilatı isə artıb. Lakin qiymətlər əksinə, dəyişib: "Xarici ticarət dövriyyəsinin azalmasının əsas səbəblərindən biri dünya bazarında enerji məhsullarının qiymətinin əvvəlki illə müqayisədə az olmasıdır. Xüsusən də qazın qiymətində kəskin azalmalar müşahidə olundu. Bu da nəticə etibarilə ixracın ümumi dəyərinə təsir göstərib və azalmalar baş verib. Həmçinin ötən müddətdə neft hasilatının azalması, qaz hasilatının isə artması müşahidə olunub. Ümumən ötən ilin ilk yarımilində enerji sektorunda 0,6 faiz artım qeydə alınıb. Amma bunun əsas səbəbi qaz hasilatının artması ilə bağlıdır. Qaz hasilatının artmasına baxmayaraq, dünya bazarında, xüsusən də Avropa bazarında onun qiymətində azalmalar müşahidə olunur. Nəticədə qaz satışından əldə etdiyimiz gəlirlərdə də azalmalar qeydə alınır".




İqtisadçı-ekspertin sözlərinə görə, neft hasilatı stabilləşməli, qaz hasilatı isə artırılmalıdır: "Prezident İlham Əliyev neft hasilatındakı azalmanın qarşısının alınması və sabitləşməsini yeni dövrün əsas hədəflərdən biri olaraq elan etdi. Bu, Azərbaycan üçün vacibdir. İndiki halda yalnız qaz hasilatında artımların qeydə alınacağı proqnozlaşdırılır. Nəzərə alsaq ki, Azərbaycan ötən il Avropaya 12 milyard kub metr qaz nəql etmişdisə, bu il həmin rəqəm 13 milyard kubmetrə yaxın olacaq. 2027-ci ilədək bu rəqəmin 20 milyard kubmetrə qədər çatdırılması nəzərdə tutulur. Bu baxımdan, hazırda məqsəd mavi yanacaq hasilatında artımlara nail olmaqdan ibarətdir. Neft hasilatında isə əsas hədəf stabilləşmədir. Bu istiqamətdə müvafiq işlər görülür".







## ARTIM ÜÇÜN ÜMİDİMİZ YENİ PLATFORMAYADIR

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev bildirdi ki, neft hasilatını azaldan səbəblər var: "Azərbaycanda neft hasilatının pik həddi 2009-2010-cu illərə təsadüf etdi. O illərdə Azərbaycanda illik neft hasilatı 50 milyon ton civarında idi. Ən zəngin yataq "Azəri-Çıraq-Günəşli" idi. Buradan 600 milyon tona yaxın neft hasil edilib. 2010-cu ildən başlayaraq neft hasilatında azalma baş verir. Bu, təbiidir. Çünki hər bir yatağın geoloji quruluşu, eyni zamanda çıxarıla bilən neft ehtiyatları mövcuddur. Yataqların istismarı bir müddət sonra pik həddinə çatır. Sonra isə azalmalar baş verir, çünki yataqlar qocalmağa doğru gedir".

Z.Vəliyevin fikrincə, qarşıdakı illərdə Azərbaycanda neft hasilatında hər hansı bir artıma nail olmaq gözlənilmir: "Lakin "Azəri-Çıraq-Günəşli" blokunda yeni hasilat platformasının istifadəyə verilməsi neft hasilatında bir az sabitlik yarada bilər. Bundan sonra da bu yataqların hasilat həcmlərinin artırılması üçün işlər davam etdiriləcək. Lakin böyük hasilat həcmlərinə nail olmaq mümkün deyil".

Ekspert iki yatağımızın işlənməmiş qaldığını da bildirdi: "Bunlardan biri "Qarabağ" yatağıdır. Digəri isə Türkmənistanla ortaq yatağımız olan "Kəpəz"dir. Türkmənistan tərəfi onu "Sərdar" adlandırır. Xəzərin hüquqi statusu müəyyən edildikdən sonra Türkmənistan və Azərbaycan bu yatağı ortaq istismar edəcək. Lakin hələ hasilata başlamaqla bağlı texniki məsələlər qalır. Bu iki yataq da sənaye istismarına verilərsə, o zaman Azərbaycanda müəyyən bir dövr ərzində neft hasilatında sabitlik yaratmaq olar. Amma artım baş verməyəcək. Çünki hazırda elə zəngin yataqlarımız yoxdur".


Zəfər Vəliyev

Z.Vəliyev qaz hasilatının artacağı proqnozlarına da münasibət bildirdi. Qeyd etdi ki, hazırda qaz yataqlarımız ən pik səviyyəsindədir: "Qarşıdakı illərdə "Şahdəniz" qaz yatağında 2027-ci ilə kimi illik artım müşahidə olunacaq. "Abşeron" yatağının hasilatı 1,5 milyard kubmetrdirsə, qarşıdakı illərdə bu, beş milyard ola bilər. Lakin dünya bazarında neft və qaz qiymətləri arasında fərq var. Neftin bir bareli 82-85 dollar civarındadırsa, təbii qazın min kubmetri 354 dollardır. Yəni qaz qiymətləri neftlə müqayisədə ucuzdur".

MƏNZİL ALMAQ İSTƏYƏNLƏRİN ƏKSƏRİYYƏTİ GÖZLƏMƏ MÖVQEYİNDƏDİR

# SATILMIR, AMMA UCUZLAŞMIR DA

**Artıq xeyli müddətdir mənzil bazarında durğunluq hökm sürür. Ekspertlər bunun səbəbini mənzillərin gündən-günə bahalaşmasında görürlər. Buna baxmayaraq, daşınmaz əmlak qiymətlərində ucuzlaşma hiss olunmur.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar-iyul aylarında Azərbaycanda daşınmaz əmlak üzərində 207 669 mülkiyyət hüququnun qeydiyyatı aparılıb. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatında bildirilir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 30,7 faiz azdır. Yeddi aylıq göstəricinin 33 572-si ilkin, 174 097-si isə təkrar qeydiyyatın payına düşüb. Bunlar bir il əvvələ nisbətən müvafiq olaraq 29,2 və 31 faiz azdır. Yanvar-iyul aylarında fərdi yaşayış və bağ evi üzərində 33 395, mənzil üzərində 46 933, torpaq sahəsi üzərində 120 079, qeyri-yaşayış binası üzərində 1 921, qeyri-yaşayış sahəsi üzərində 4 863, əmlak kompleksi üzərində 453, çoxmərtəbəli yaşayış binası üzərində isə 25 mülkiyyət hüququnun dövlət qeydiyyatı aparılıb.

Rəqəmlərdən də göründüyü kimi, ilkin mənzil qeydiyyatında azalma mövcuddur. Bununla paralel olaraq, son vaxtlar daşınmaz əmlak bazarında da durğunluq hökm sürür. Nə baş verir? Satışların azalması fonunda əmlak bazarında hər hansı dəyişiklik gözlənilirmi?

### HƏLƏ DƏ DAVAM EDİR

Daşınmaz əmlak eksperti Ramil Osmanlının sözlərinə görə, qeydiyyat prosesinin azalması bir neçə ildir müşahidə olunur: "İlin dörd ayı ilə bağlı açıqlanan nəticələrdə ötən illə müqayisədə qeydiyyat prosesində azalma daha çox idi. Altı aylıq nəticələr də göstərir ki, ötən illə müqayisədə daşınmaz əmlakın qeydiyyatı istiqamətində aparılan əməliyyatların sayında kəskin azalma var. Çünki alqı-satqı prosesi zəifləyib. Bazarda son illərdə ciddi durğunluq, passiv vəziyyət hökm sürür. Burada səbəb kimi makroiqtisadi amilləri, ölkəyə pul axınının azalmasını göstərə bilərik. Xüsusilə, 2022-ci ilin sonu və 2023-cü ilin əvvəlində meydana çıxan durğunluq daşınmaz əmlak üzərində mülkiyyətin qeydiyyatının azalmasına gətirib çıxaran amillərdəndir. Bu proses ötən ilin sonlarından müşahidə olunmağa başlayıb və hələ də davam edir".



Ramil Osmanlı

### MƏNZİLLƏRİN QİYMƏTLƏRİ AZALMALIDIR, AMMA...

R.Osmanlının fikrincə, Azərbaycanın daşınmaz əmlak bazarı sərbəst olmadığı üçün qiymətlərin ucuzlaşacağı ilə bağlı proqnoz vermək mümkün deyil: "Qeyri-yaşayış təyinatlı obyektlərin qiymətlərində stabillik olsa da, mənzil və torpaq qiymətlərində nisbi də olsa artımları müşahidə edirik. Daşınmaz əmlak qiymətləri daha çox ilkin mənzil bazarında formalaşır. Bu sahə investorların nəzarətində olduğu üçün tələb və təklifdən asılı deyil. Azərbaycanın daşınmaz əmlak bazarı xarici təsirlərdən asılı olduğu, qonşu ölkələrdə baş verənlər prosesə təsir etdiyi üçün gələcəklə bağlı proqnoz vermək qeyri-mümkündür. İqtisadi tərəfdən baxdıqda demək olar ki, ilin sonuna doğru mənzil qiymətləri azalmalıdır. Amma bu, bizim əmlak bazarımız üçün xarakterik deyil".




**207 669** mülkiyyət hüququnun qeydiyyatı aparılıb

**30,7%** azdır

## BİROTAQLI MƏNZİLLƏRİN QİYMƏTLƏRİ 100-130 MİN MANATDIR

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyevin fikrincə, qiymətlərin durmadan artması alıcıların gözləmə mərhələsinə keçməyinə səbəb olub: "Son üç ildir böyük şəhərlərdə, xüsusilə də Bakıda daşınmaz əmlak qiymətlərində kəskin artımlar müşahidə olunur. Son illər baş verən bu yüksəliş əmlak bazarında alıcı qıtlığına gətirib çıxarıb. Əmlak bazarında baş verən qiymət artımından sonra alıcılar gözləmə mövqeyi tutmağa üstünlük verirlər".

E.Fərzəliyev bildirdi ki, əvvəl insanlar ipoteka krediti ilə mənzil sahibi ola bilirdilərsə, artıq bu da mümkün deyil: "Ötənilki və ondan əvvəlki satışlara nəzər saldıqda satılan əmlakların, xüsusilə mənzillərin əksəriyyətinin ipoteka və bankdaxili kreditlərlə satıldığını görə bilərik. Alıcıların böyük hissəsi ipoteka krediti ilə mənzil almaq istəyən şəxslər olduğu üçün hazırda əmlak bazarında ipoteka predmetinə çevrilə bilən, mərkəzə yaxın ərazilərdəki köhnə binalardakı birotaqlı mənzillərin satış qiymətləri 100-130 min manat arası dəyişir. Amma əvvəlki illərdə bu qiymətə iki və ya üçotaqlı mənzillər almaq mümkün idi. Yenitikililərdə isə qiymət artımı daha çoxdur. İpoteka kreditinə müraciət etdikdə də qiymətlərlə vətəndaşın alıcılıq qabiliyyəti üst-üstə düşmür. Vətəndaşların aldığı əməkhaqqı da aylıq ipoteka kreditini ödəməyə uyğun olmadığından mənzil ala bilmirlər. Mənzil ala biləcək şəxslər də gözləmə mövqeyindədir ki, əmlak bazarında hansısa formada ucuzlaşma müşahidə olunsun".



Elnur Fərzəliyev

## MƏNZİLLƏRİN QİYMƏTİNDƏ BU HALDA UCUZLAŞMA OLA BİLƏR

Ekspert qeyd etdi ki, qiymətlərin sürətli artım səbəbi əhalinin kütləvi şəkildə Bakıya üz tutmasıdır. Tələbat artdıqca, qiymətlər də yüksəlir. Amma digər ərazilərdə iqtisadi vəziyyət yaxşılaşdıqca, bu, mənzillərin qiymətinin ucuzlaşmasına gətirib çıxara bilər: "İşğaldan azad olunmuş ərazilərimizdə dörd ilə yaxındır tikinti-bərpa işləri gedir. Məcburi köçkünlər mərhələli şəkildə köçürülürlər. Həmçinin, orada insanların işlə təmin olunması digər şəxslərin də Qarabağ ərazisinə köçməsinə gətirib çıxarır. Məcburi köçkünlərin tərk etdiyi mənzillər satışa çıxarılır. Onların qiyməti daha ucuz olduğu üçün bu da aztəminatlı insanların evlə təmin olunmasına şərait yaradır. Həmin ərazilərə köç intensivləşdikdə paytaxt ərazisindəki evlərə, iaşə obyektlərinə tələbat azaldıqca mənzillərin qiymətlərində ucuzlaşma ola bilər".

UĞUR
Kaspi ÜÇ ƏSRİN QƏZETİ
ŞƏNBƏ 2024 9



XARİCDƏKİ TAM ŞTATLI İŞİNDƏN İMTİNA EDİB QARABAĞ UNİVERSİTETİNƏ YOLLANAN AZƏRBAYCANLI

# “SÜNİ İNTELLEKTDƏN QAÇIŞ YOXDUR”



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Orxan Abdullayev:** “Yeddi illik xaricdə təhsil turum məni ən azı 70-80 professorla qarşılaşdırıb və onların dərs metodlarını, tədris üslublarını müşahidə etmişəm. Bu təcrübələri Qarabağda tətbiq etmək şansı məni sevindirir”.

Almaniya, İtaliya, Macarıstan, İsveç, Litva və Polşada öyrənib, İspaniya, Yunanıstan, Braziliya, Tayvanda isə öyrədib. Əzmkarlığı, tətbiq etdiyi yeni təhsil metodları ilə əcnəbi müəllimlərə təlimlər keçib, innovativ düşüncələri ilə onları təəccübləndirib. Deyir ki, yeddi illik təhsil müddətində qarşılaşdığı 70-80 professordan öyrəndiklərini bu gün Qarabağ Universitetində tətbiq etməyə gəlib.

Müsahibimiz Qarabağ Universitetinin Pedaqoji fakültəsində assistent vəzifəsinə təyin olunan Orxan Abdullayevdir.

### BETT MÜKAFATINI QAZANAN İLK AZƏRBAYCANLI

Orta təhsilini Gəncədə alıb, bakalavr təhsilinə Azərbaycan Dillər Universitetində ingilis dili müəllimliyi ixtisası üzrə davam edib. 2017-2019-cu illərdə Almaniyanın Johannes Mainz Guttenberg Universitetində sosiolinqvistika və çoxdillilik ixtisası, 2019-2021-ci illərdə Romanın La Sapienza Universitetində isə ingilis və Anqlo-Amerikan tədqiqatları üzrə iki magistr təhsili alıb. Həmçinin, 2021-2023-cü illərdə Hökumətlərarası Təqaüd Proqramı (HTP) çərçivəsində Macarıstanın reytinqli Eötvös Lorand Universitetində təhsil elmləri proqramı təhsil texnologiyaları ixtisası üzrə magistr proqramını bitirib. Hazırda HTP çərçivəsində Eötvös Lorand Universitetində təhsil texnologiyaları üzrə doktorantura təhsili alır, “Süni intellekt və onun təhsildə istifadəsi” üzrə tədqiqat işləri aparır. O, təhsildə texnologiyalar və süni intellekt mövzularında mühazirələr deyib, ELTE Universitetində professor köməkçisi və tədqiqatçı olaraq çalışıb. Özünü dünyanın ən qədim xarici dil hazırlığı mərkəzi olan Berlitz-də ingilis dili müəllimi kimi də sınayıb. Gənc alim həm də BETT mükafatını qazanan ilk azərbaycanlıdır. Onun dörd layihəsi Londonda keçirilən BETT yarışmasında dörd kateqoriya üzrə finalçı olub, “Təhsildə ən yaxşı süni intellekt” mükafatını qazanıb. Bununla yanaşı, Böyük Britaniyanın Konsulluğu tərəfindən həyata keçirilən Xaricdə Təhsil Agenti kursuna qatılıb.

**“ƏTRAFIMDA OLANLAR HƏMİŞƏ YÜKSƏK QİYMƏT ALIRDI”**

● **Orxan bəy, karyera yolunda ilk çətinliklə ibtidai sinifdə qarşılaşıb, sizə qarşı olan ağır bullinqlə uşaq yaşınızda mübarizə aparmısınız. Bullinqlərin sizi gücləndirdiyini düşünürsünüz?**

● Uşaqlıqda ağır dərəcədə kəkələmə problemim var idi. Həyəcanlandıqda nitqimdə ciddi çətinliklər yaranırdı. Bu səbəbdən, mən inklüziv təhsil aldım və həm məktəbdə, həm də həyatimizdə yaşıdlarımın bullinqləri ilə mübarizə aparmaq məcburiyyətində qaldım. Ailəmin güclü dəstəyi ilə bu çətinlikləri aşmağı bacardım və bu, məni gücləndirdi. Yadımdadır, orta məktəbdə keçirilən sürətli oxuma yarışmasında iştirak edirdim. Yarışda bir dəqiqə ərzində kim daha çox söz oxuyursa, qalib olurdu. Növbə mənə çatanda daha çox söz oxuyaraq qalib gəldim. Amma sinif yoldaşlarım mənə qəhqəhə ilə güldülər. Səbəbini anlamadım, müəllim oxu kitabımı sinfə göstərəndə gördüm ki, kitabı tərs oxumuşam. Mətni o qədər yaxşı əzbərləmişdim ki, kitabın tərs olduğunun fərqinə varmamışdım. Bu hadisədən sonra fərqli öyrənmə metodlarını tətbiq etməyə başladım. Nəticədə, beşinci sinifdə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan qiraət yarışmasında şəhər üzrə birinci yer tutdum və ondan sonra da müxtəlif olimpiada və yarışlarda qalib oldum.

İnklüziv təhsillə bağlı şagirdlərə və valideynlərə hər zaman deyirəm ki, problemi düzgün müəyyənləşdirib, onun üzərinə getmək lazımdır. Şagird çətin vəziyyətdədirsə, problemi həll etmək üçün özünə uyğun yolu tapmalıdır. Əgər bunu edə bilirsə, onun qarşısında heç bir maneə dayana bilməz.

● **Əslində, özünüzlə mübarizəniz ilk ali təhsil zamanı da davam edib. Sizi sinif otağında çox vaxt tələbə deyil, ikinci müəllim edən də kəşf etdiyiniz həll yolu olub?**

● Bəli, Azərbaycan Dillər Universitetində oxuyarkən qrupda 44 qız və yeganə oğlan tələbə idim. O dövrdə sinfin arxa partasında oturur, çox vaxt heç kimlə danışmır və daim müşahidə edirdim. Bu müddət ərzində “bir insan necə daha yaxşı öyrənə bilər?” sualına cavab axtarırdım. Öz üzərimdə fərqli öyrənmə strategiyaları tətbiq edir və müəllimlərdən yalnız ingilis dilində danışmalarını xahiş edirdim. Bu prosesə qrup yoldaşlarımı da cəlb etməyə çalışırdım. Təhsilin son illərinə yaxın mən artıq ingilis dilində öz qrup yoldaşlarıma və hətta müəllimlərə dərs verməyə başladım. Həmin dönəmdə digər universitetlərdən də hazırlığa gələn müəllimlərə dərs keçirdim. Ətrafımdakı tələbələr və dostlarım həmişə yüksək qiymətlər alırdılar. Müəllimlərim də tez-tez zarafatla deyirdilər ki, otaqda iki müəllim var.

● **Seçilməyi necə bacarırdınız?**

● Məncə, uğurlar təkcə bir sahəyə fokuslanmaqla əldə edilmir. Həm sosial, həm də akademik həyatda uğur qazanmaq üçün insanın müxtəlif maraq və bacarıqlara sahib olması vacibdir. Məsələn, riyaziyyatda güclü olan bir şagird yalnız riyaziyyata deyil, fərqli sahələrə də maraq göstərməlidir. Bu cür fərqliliklər insanın daha geniş düşünməsinə və inkişaf etməsinə kömək edir. Mən özümü tanıyır, maraqlarımı və güclü tərəflərimi kəşf edirdim. Fərqli sahələrdə özümü sınayır və müxtəlif öyrənmə metodlarını tətbiq edirdim. Bu yanaşma mənə yalnız bir sahəyə fokuslanmaqdan qaçmağa və beynimi daha geniş şəkildə inkişaf etdirməyə imkan verirdi. Nəticədə, təhsil aldığım xarici universitetlərdə də seçilirdim və professorlarla debatlar apararaq, öz bilik və bacarıqlarımı inkişaf etdirməyə davam edirdim. Bu, mənim genetikam və yetişdirmə şəraitimlə əlaqədardır. Həm ana, həm də ata tərəfimdən elm sahəsində tanınmış və mötəbər insanlar var. Uşaqlıqda yay tətillərində onlarla görüşür, alimlərin apardığı diskussiyaları dinləyərək böyüyürdüm. Nənəm və babam hər ikisi müəllim idilər və yetişməyimdə onların rolu böyükdür. Onlar məni dağa aparar, bitkiləri, təbiəti göstərərək öyrədərdilər. Yay tətillərində bədii ədəbiyyat oxuyar, nənəmin hekayələrini dinləyərdim. Mənim üçün öyrətmək sadəcə məsuliyyət deyil, həm də daxildən gələn tələbatdır.

### GƏLƏCƏYİN TƏHSİL ÜÇBUCAĞI

● **Bəs, xaricdə maraqla qarşılanan “Təhsildə süni intellekt platforması” layihəniz hansı zərurətdən yarandı?**

● Macarıstanda təhsildə texnologiyalar və süni intellekt mövzularında mühazirələr deyirdim. Həmişə düşünürdüm ki, təhsildə çox şey dəyişsə də, müəllimin rolu və sinif otağının funksiyası dəyişmir.

*“Dünyanı gəzərək müxtəlif təhsil metodlarını öyrənib ölkəmdə tətbiq etmək mənim həmişəki arzum olub. İndi bunu Qarabağda həyata keçirə bilmək əvəzolunmaz hissdir.”*

Bu gün süni intellektin kifayət qədər geniş imkanları var. Müəllim artıq bilgi daşıyıcısı rolundan istefa etməli və yaxşı moderator olmalıdır. Bilgi öyrənmə mühitində kəşf edilərək qazanılanda uzunmüddətli və maraqlı olur. Şagirdlər, tələbələr ilk olaraq özlərini kəşf etməli, sonra öyrənməli və necə tətbiq etmək haqqında düşünməlidir. Hazırda üzərində durduğum əsas öyrənmə metodu proyekt və problem əsaslı öyrənmədir. Bu platformada müəllimin yükünün azaldılması üçün süni intellektdən istifadə etdik və bu prosesin bir hissəsi kimi administrativ işləri ona həvalə etdik. Belə olduqda, müəllim şagirdlə daha çox vaxt keçirə bilir. Biz süni intellekti fərdi öyrənmə təcrübəsi üçün təlimatlandırır, onu Azərbaycan təhsilinin bilgiləri əsasında formalaşdırırıq. Süni intellektlə danışma bacarığı və bu bacarığın qiymətləndirmə metodologiyasını tətbiq edirik. Şagird materialla baş-başa qalır, müəllim isə onu müşahidə edir. Material doğrudurmu? Buradan çıxan nəticələr necədir? Şagird bunu necə öyrənir? Gələcəyin təhsili bu üçbucağın içində dayanır.

● **Hazırda “Süni intellekt və onun təhsildə istifadəsi” üzrə tədqiqat işləri aparırsınız. Süni intellekt təhsildə dönüş yarada bilərmi?**

● Bu, tamamilə yeni bir sahədir. Mənim əsas mövzum da süni intellektin tələbələrin problem həll etmə və kreativlik qabiliyyətlərini inkişaf etdirməsi ilə bağlıdır. Biz kifayət qədər yeni və maraqlı təcrübələr həyata keçiririk. Məsələn, süni intellektə əmr edirik ki, spesifik bir personajı canlandırsın. Bu yolla tələbə Albert Eynşteynlə fizika dərsi keçə və ya Mariya Küri ilə kimya mövzusunda söhbət edə bilər. Məsələn, yeddinci sinif materialında Mariya Kürinin kəşfləri ilə bağlı bir mövzu var. Biz bu mövzunun tələbəyə lazım olan hissəsini götürüb süni intellektə “yedirdirik”. Sonra isə ona şagirdlə hansı tərzdə danışmalı olduğunu izah edirik. Mariya Küri dərsi izah edir, şagirdin səhvlərini düzəldir və ona suallar verir. Müşahidələrim göstərib ki, əvvəlcə yalnız 15 dəqiqəlik öyrənmə müddəti olan tələbə, süni intellektlə danışaraq bu müddəti iki saata qədər uzadır və bu zaman ərzində mövzunu tam mənimsəyir.

Başqa bir nümunə kimi, məktəblərdə şagirdlərin qarşısına belə bir vəzifə qoyuruq: Paraqvaya səfər edən şagird oradakı mağazaya gedib, bir suvenir almalıdır. Mağaza sahibinə (bu rolu süni intellekt oynayır) isə deyirik ki, suveniri 50 avrodan aşağı satmasın. Bu tapşırığı yerinə yetirən şagirdlər kreativlik, analitik düşünmə qabiliyyətlərini artırır və dillərini inkişaf etdirirlər. Belə imkanları təhsil sahəsində tətbiq edə biləcəyimiz başqa bir texnologiya mövcud deyil. Süni intellektdən qaçış yoxdur. Ya bu texnologiya ilə irəliləyəcəyik, ya da digər ölkələrdən geri qalacağıq. Gələcəyin təhsili yeniliklərlə birgə formalaşacaq.

### “MÜƏLLİMİN XÜSUSİYYƏTLƏRİ DƏYİŞƏCƏK”

● **Sizcə, bu metodla “tənbəl şagird”, yaxud “tənbəl tələbə” erası bitə bilərmi?**

● Mən inanıram ki, tənbəl şagird və ya tələbə anlayışı çox vaxt yanlış interpretasiya olunur. Əslində, hər bir insanın maraq göstərdiyi və potensial inkişaf edə biləcəyi bir sahə var. Əsas problem bu marağı aşkarlamaq və onu doğru şəkildə yönləndirməkdir. Bu, müəllimin və təhsil mühitinin vəzifəsidir. Hər bir şagirdin və tələbənin öyrənmə üslubu və maraqları fərqlidir. Əgər şagirdin maraqları düzgün tanınmasa və müvafiq alətlər və metodlar təklif edilməsə, o, tənbəl görünə bilər. Biz süni intellektdən istifadə edərək, şagirdlərin maraqlarını daha yaxşı aşkar etmək və onlara uyğun fərdi öyrənmə yolları təklif etməyə çalışırıq. Belə yanaşma ilə “tənbəl” deyilən şagirdlər də özlərinə uyğun sahələrdə daha aktiv və motivasiyalı ola bilərlər. Süni intellekt, şagirdin maraq göstərdiyi mövzuları tapmağa və onun üçün ən uyğun tədris üsullarını təqdim etməyə kömək edə bilər. Bununla da hər bir şagirdin öyrənmə potensialını tam olaraq istifadə etməsi mümkündür.

● **“Müəllim artıq bilgi daşıyıcısı olmamalıdır” deyirsiniz. Sizcə, süni intellekt müəllimlik peşəsini də risk altına qoya bilərmi?**

● Xeyr, mən inanıram ki, müəllimlik peşəsi heç vaxt ölməyəcək. Uşaqların inkişafı, onların müşahidəsi və yönləndirilməsi üçün həmişə bir insana ehtiyac olacaq. Amma bu peşənin xüsusiyyətlərinin dəyişməsi qaçılmazdır. Müəllimlərin rolu artıq sadəcə bilgi daşıyıcısı olmaqdan ibarət deyil, onlar daha çox tələbələrin öyrənmə prosesini yönləndirən, onları motivasiya edən və fərdi ehtiyaclara cavab verən bələdçilər olmalıdırlar. Sinifdə 20 uşaq varsa, hər birinə uyğun fərdi yanaşma tətbiq etmək lazımdır. Müəllimlər bu dəyişikliklərə uyğunlaşmalı, öyrənmə mühitində daha elastik və çevik olmalıdırlar. Bundan əlavə, müəllimlər müasir texnologiyalara və sosial mediaya da adaptasiya olmalıdırlar. Sosial şəbəkələrdə aktivlik, müasir tendensiyalarla ayaqlaşmaq, müəllimlərin tələbələrlə əlaqəsini gücləndirə bilər. Bu, tədris prosesini daha maraqlı və interaktiv edə bilər. Lakin sosial media müəllimliyin əsas komponenti deyil, sadəcə bir vasitədir. Tədris və tərbiyə işində əsas olan, şagirdlərlə düzgün ünsiyyət qurmaq və onların potensialını inkişaf etdirməkdir.









Fotolar: Səbinə Şəbiyeva/Global Media Group

### “BURADA ELƏ BİR KONTİNGENT YARADIBLAR Kİ...”

● **Macarıstan, Litva, İtaliya və Almaniya kimi ölkələrin təhsil müəssisələrindən sonra CV-nizə Qarabağ Universiteti də əlavə olundu.**

● Bu hissin tərifi yoxdur. Çox sevincli və qürurluyam. Burada elə bir akademik mühit yaradıblar ki, xaricdəkinə bərabər, hətta daha yaxşı bir atmosfer görürəm. Biz hər gün professorlarla, kafedra müdirləri ilə elmi müzakirələr aparırıq. Bu müzakirələrdə xarici təcrübələrimdən istifadə edirəm, fərq yalnız ondadır ki, bu dəfə müzakirələr ana dilimizdədir. Dünyanı gəzərək müxtəlif təhsil metodlarını öyrənib ölkəmdə tətbiq etmək mənim həmişəki arzum olub. İndi bunu Qarabağda həyata keçirə bilmək əvəzolunmaz hissdir. Çox güclü layihədir, möhtəşəm idarəçilər və müəllim heyəti var. Öyrəndiyim bütün metodları tələbələrlə bölüşmək üçün çox həyəcanlıyam. Əminəm ki, Qarabağ Universitetindən məzun olan tələbələr, xaricə təhsil üçün üz tutduqda, burada qazandıqları təcrübələrdən məmnun qalacaqlar və “mən bu metodları, hətta daha yaxşısını Qarabağda görmüşəm” deyəcəklər. Yeddi illik xaricdə təhsil turum məni ən azı 70-80 professorla qarşılaşdırıb və onların dərs metodlarını, tədris üslublarını müşahidə etmişəm. Bu təcrübələri öz ölkəmdə tətbiq etmək şansı məni çox sevindirir. Həmçinin, rektorumuzun vurğuladığı kimi, Qarabağ Universitetində süni intellekt laboratoriyası yaradılacaq. Ümid edirəm ki, orada tələbələrlə daim ünsiyyətdə olub, onların start-up layihələri və ideyalarının həyata keçirilməsinə dəstək olacağam.

● **Bu qərarınızı ailəniz necə qarşıladı?**

● Onlar məndən çox həyəcanlı, sevinclidirlər. Atam birinci Qarabağ müharibəsi iştirakçısı olub. Gəncədə hərbi şəhərcikdə yaşayırıq. Xaricdə yaşadığım müddətdə də hər zaman vətənpərvərlik hissim yüksək olub. Atam hər gün Xankəndi ilə bağlı hekayələrini danışır, küçələrini izah edir, xəritədə şəkillərini göstərir. Qısa müddətdə ailəmlə birlikdə Xankəndinə köçəcəyik. Hazırda nəinki ailəm, bütün nəslimiz bunu bayram edir.



## SOCAR və “Uniper” əməkdaşlığı gücləndirəcəklər

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Almaniyanın “Uniper” şirkəti arasında enerji biznesi ilə bağlı geniş spektrli mövzular üzrə mövcud strateji tərəfdaşlıq əlaqələrinin daha da gücləndirilməsi imkanları nəzərdən keçirilib.

“Report”un SOCAR-a istinadən verdiyi məlumata görə, bu barədə SOCAR prezidenti Rövşən Nəcəf və “Uniper Se”nin İdarə Heyətinin üzvü və baş kommersiya direktoru Karsten Poppinqa arasında keçirilən görüşdə bildirilib.

Söhbət zamanı şirkətlər arasında “Şahdəniz” yatağından hasil edilən təbii qazın alqı-satqısı üzrə sazişin uğurla həyata keçirildiyi vurğulanıb və qaz təchizatı sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.

Tərəflər neft-qaz sektoru ilə yanaşı, enerji keçidi, enerji səmərəliliyinin artırılması sahələrində əməkdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# 18 KÜTLƏVİ MƏZARLIQ AŞKARLANIB



Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3 968 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3 962 nəfəri Birinci Qarabağ müharibəsində, altı nəfəri isə Vətən müharibəsində itkin düşüb.

**F.ABASOĞLU**

Avqustun 30-u dünyada Beynəlxalq İtkinlər Günü kimi qeyd edilir. Beynəlxalq Qızıl Xaç Komitəsindən (BQXK) Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına verilmiş məlumatlara görə, hazırda silahlı münaqişələrlə bağlı dünyada 239 min 700 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb.

Azərbaycan da uzun illərdir ki, qeyd olunan problemdən ciddi əziyyət çəkir. Dövlət Komissiyasında 01.08.2024-cü il tarixinə olan məlumatlara əsasən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3 968 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3 962 nəfəri Birinci Qarabağ müharibəsində, altı nəfəri isə Vətən müharibəsində itkin düşüb.

3 968 nəfərdən 3 202 nəfəri hərbçi, 766 nəfəri mülki şəxslərdir. Mülki şəxslərdən 69 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 283 nəfəri qadın, 334 nəfəri ahıl yaşlı şəxs olub.

Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 872 nəfər, o cümlədən 29 uşaq, 98 qadın və 112 ahıl yaşlı şəxs əsir-girov götürülüb.

### BQXK-NİN FƏALİYYƏTİNDƏN NARAZILIQ

Qeyd edək ki, istər işğal dövründə, istərsə də separatizmə son qoyan Vətən müharibəsindən sonra bölgəmizdə məlum problemlə məşğul olan ən böyük beynəlxalq təşkilat Beynəlxalq Qızıl Xaç Komitəsidir. Lakin rəsmi Bakı təşkilatın və bu kimi cavabdeh qurumların sözügedən istiqamətdə fəaliyyətindən razı deyil.

“Azərbaycan 30 il Ermənistan-Azərbaycan münaqişəsi kontekstində beynəlxalq humanitar hüquqa uyğun olaraq itkin düşmüş şəxslərimizin taleyini müəyyən etməli olan Beynəlxalq Qızıl Xaç Komitəsi kimi təsisatların fəaliyyətini qənaətbəxş hesab etmir”. “Report”un məlumatına görə, bu barədə Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev 30 avqust - Beynəlxalq itkin düşmüş şəxslər günü ilə bağlı “X”də yazıb: “Əfsuslar olsun ki, bu gün BQXK öz nizamnaməsinə və beynəlxalq humanitar hüquqa zidd olaraq, Ermənistanın pullu sifarişi ilə hesabat yazan şəxslərə yalan məlumatlar ötürməklə məşğul olur və qərəzli anti-Azərbaycan propaqanda kampaniyasında yer alır. Azərbaycan dövləti özü itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün bundan da sonra əlindən gələni əsirgəməyəcək, onların ailələrinin həsrət və iztirablarına son qoymaq üçün bu xüsusda olan davamlı tədbirlərini davam etdirəcək”.

H.Hacıyev həmçinin bildirib ki, erməni lobbisinin pulu müqabilində müharibə canilərini azad etməyə çağıran bir sıra qərb siyasətçiləri və qərb media orqanları utanmalıdırlar. “Ermənistan öz vəhşi əməllərinə görə Azərbaycandan üzr istəməli, digər günahkarları özü məsuliyyətə cəlb etməli və kütləvi məzarlıqların, o cümlədən Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun qalıqlarının dəqiq yerini bildirməlidir”, - o deyib.

### AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İTKİN DÜŞƏNLƏRİN AXTARIŞI SÜRƏTLƏNDİRİLİB

Tarixi qələbəmizdən keçən müddət ərzində Azərbaycan işğaldan azad edilmiş ərazilərdə itkin düşmüş şəxslərin axtarışı prosesini sürətləndirib. Rəsmi məlumata əsasən, hazırkı dövrədək erməni işğalından azad olunan ərazilərdə aparılmış qazıntılar zamanı 18 kütləvi məzarlıq aşkarlanıb və həmin məzarlıqlardan 169 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları müəyyən olunaraq istintaq orqanlarının nümayəndələrinin iştirakı ilə ekshumasiya edilib.

Həmin meyit qalıqlarının eyniləşdirilməsi prosesində onlardan 59 nəfərinin Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid olduğu müəyyənləşdirilib.

Bununla yanaşı, Ermənistanın işğalından azad edilmiş ərazilərdə aparılmış genişmiqyaslı tikinti-quruculuq işləri və həyata keçirilmiş digər təxirəsalınmaz tədbirlər nəticəsinə 259 şəxsə aid meyit qalıqları aşkar olunaraq ekshumasiya edilib. Bu istiqamət üzrə 16 nəfər itkin-şəhidin şəxsiyyəti eyniləşdirilib.

# “NAR”DAN YENİ DƏRS İLİ ÜÇÜN SƏRFƏLİ TARİF

Sizə ən yaxın operator olan “Nar” hər yeni tədris ilində ünsiyyəti daha rahat etmək üçün şagird və tələbələrə ən sərfəli tariflərini təklif edir. Qarşıdan gələn yeni dərs ilində də “Nar” bol ünsiyyət imkanı verən “CavanNar 10” tarifini tövsiyə edir. Bu tarifi istifadə edən gənclər ümumilikdə 11 GB həcmində internet paketini və tarifdaxili 550 danışıq dəqiqəsini ayda cəmi 10 AZN-ə əldə edir.




Bundan başqa, “CavanNar 10” istifadəçisi təqdim edilən paketi bitirdiyi halda, əlavə internet paketini də daha sərfəli qiymətə sifariş edə bilər. “CavanNar 10” istifadəçiləri üçün nəzərdə tutulan əlavə internet paketlərinin qiyməti 500 MB üçün 2 AZN, 1 GB üçün 4 AZN təşkil edir.

Tarifə qoşulmaq üçün sadəcə *777#710#YES yığmağınız kifayətdir. Tarif haqqında daha ətraflı məlumatı nar.az/cavannar-10 səhifəsindən əldə edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1616
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# UCQAR KƏND MƏKTƏBİNİN İNANILMAZ UĞURU



Ramin Qənbərov: “Kənd yerində şərait olmadığı üçün kodlaşdırma da məktəbdə edilir. Bütün günü müzakirə edir, məsləhətləşir, hər gün valideynlərlə görüşürdük. Nəticələr açıqlanan gün gecə saat üçdə yatmışam. Bütün valideynlərlə danışıb təbrik etmişəm”.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Məqsədlərinə gedən yolda nə relyefi dərd ediblər, nə də havanı. Nə qar onlara əngəl olub, nə də boran. Belə ki, bu il ucqar dağ kəndində yerləşən orta məktəbin 12 məzunundan 11-i ali təhsil müəssisələrinə qəbul olub. Yardımlı rayonu Şəfəqli kənd Ş.Şabiyev adına tam orta məktəbin məzunlarından dördü qız, yeddisi oğlan olmaqla, tələbə adını qazanıblar.

Ucqar kənd məktəbində yüksək nəticə göstərərək seçilməyi fərqlənən məktəbin direktoru Ramin Qənbərovla söhbətləşdik.

### ONLARIN HƏR BİRİ MƏKTƏBDƏ HAZIRLAŞIB

Ramin müəllim “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, şagirdlərin hər biri məktəbin müəllimləri ilə hazırlaşıb, ciddi əmək sərf edərək bu nəticəyə nail olublar: “Yardımlı şəhər Şəfəqli kəndində şagirdlərin xüsusi olaraq hazırlaşması üçün heç bir təhsil kursu yoxdur. Ucqar kənd məktəbi olduğu üçün şagirdlərin imkanları da dar çərçivədə olub. Bu uğur şagirdlərin, müəllimlərin, valideynlərin birlikdə əməyinin nəticəsidir. Bu zəhmətkeş şagirdlərin hər biri ilə fəxr edirik”.

### “SAVADLI QADIN, SAVADLI CƏMİYYƏTDİR”

Direktoru sevindirən ikinci əsas amil isə, kənddə qızların da təhsilə marağının olması, valideynləri tərəfindən dəstəklənməsidir: “Bilirsiniz ki, kənd məktəblərində qızlarla bağlı problemlər var idi. Bundan bir neçə il öncəsinə qədər onlar təhsildən yayındırılır, məhz qadın olduqları üçün təhsil almaq hüquqları əllərindən alınır, bəzi hallarda erkən nikaha məcbur edilirdilər. Biz də bununla mübarizə aparmışıq. Sevindirici haldır ki, bu il qəbul olan şagirdlərin dördü qızdır. Bu mərhələyə gəlmək üçün kollektivimizlə birlikdə valideynlərlə mütəmadi olaraq işləmişik. Ən əsas vəzifələrimizdən biri qız uşaqlarının təhsildən yayındırılmasının qarşısını almaq, erkən nikahlarla mübarizə idi. Bunun üçün kollektiv olaraq onlarla söhbətlər aparır, qızları tədbirlərə cəlb edirdik. Hətta kənddə qızların voleybol komandasını belə yaratdıq. Ona görə də qızların bu nəticəsi məni ikiqat sevindirir. Ötən il də 11 nəfər məzunumuzdan yeddisi ali məktəbə qəbul oldu, onlardan üçü qız idi. Savadlı qadın savadlı cəmiyyətdir”.

Direktor deyir ki, bu məktəbdə təhsildən yayınan şagird olmayıb: “Biz hansısa şagirdin bir neçə gün ard-arda gəlmədiyini müşahidə edən kimi, valideyni ilə təmasa keçir, təhsilin vacibliyini, məcburiliyini izah edirdik. Kənd yerlərində valideynlər müəllimlərin fikirlərinə etimad göstərir, etibar edirlər”.

### "ŞAGİRDLƏRİMİZ NƏ RELYEFİ DƏRD EDİB, NƏ DƏ HAVANI..."

Direktor kənd və şəhər uşaqları ilə bağlı stereotiplərdən də danışdı. Deyir ki, oxuyan hər yerdə oxuyur: “Əgər bir insan təhsil almaq istəyirsə, yerləşmə yeri buna maneə ola bilməz. İstər şəhər olsun, istərsə də kənd, oxuyan şagird hər yerdə seçilir, məqsədinə nail olur. Sadəcə, sistem düzgün qurulmalıdır. Bizim son üç ildə 38 məzunumuz olub və onlardan 24 nəfəri, yəni 63 faizi ali məktəbə qəbul olub. Şagirdlərimiz nə relyefi dərd edib, nə də havanı. Nə qar, nə boran onlara əngəl olmayıb. Məktəbdə təminatımız da normaldır. Təhsil sırf şagirddən, müəllimdən və pedaqoji heyətin vəzifə borcunu nə dərəcədə yerinə yetirməsindən asılıdır”.

### “ŞAGİRDİN KARYERASINDA MÜƏLLİMİN ROLU DANILMAZDIR”

Pedaqoji heyətin vəzifə borcundan danışarkən direktor bildirir ki, müəllim bu adla kifayətlənməməli, öz üzərində işləməlidir: “Bizim müəllimlərimiz də savadlı, həvəsli, işlərinin peşəkarıdırlar. Yeddi müəllimimiz sertifikasiyadan yüksək qiymətlərlə keçib. Təbii ki, belə müəllimlərin yetişdirdiyi şagirdlər də uğurlu nəticə göstərəcək. Bir şagirdin karyerasında müəllimin rolu danılmazdır. Müəllim burada ikinci valideyn deməkdir".



## “ŞAGİRDLƏRİM HƏM DƏ MƏNİM ÖVLADLARIMDIR”




Direktor deyir ki, biz inzibati vəzifəmizdən əlavə, həm də valideynik: "Məsələn, mənim qızım da ali məktəbə 569 balla qəbul olub və 11 şagirddən biridir. Şagirdlərim həm də mənim övladlarımdır. Onların heç birini öz qızımdan ayırmamışam. Uşaqlar utanmadan, çəkinmədən problemlərini mənimlə bölüşürlər, həll yolunu tapırıq. Bu sinifdən yalnız bir nəfər qəbul olmadı, onun da seçimi ali təhsil deyildi, sənəd də verməmişdi. Hər bir müəllimin cəmiyyət, valideyn, dövlət qarşısında vicdan borcu var. Müəllim bunu hiss etməli, ləyaqətli olmalıdır. Biz cəmiyyətə şagird, tələbə yetişdiririk. Ona görə də məsuliyyətimizi dərk etməliyik”.

### “O QƏDƏR SEVİNCLİ İDİK Kİ...”

Direktor vurğulayır ki, nəticələr açıqlananda gec saatlara qədər valideynlərlə, şagirdlərlə danışıb, onların sevinclərinə şərik olub: “Şagirdlərin bütün qəbul prosesini biz edirik. Kənd yerində şərait olmadığı üçün kodlaşdırma da məktəbdə edilir. Bütün günü müzakirə edir, məsləhətləşir, hər gün valideynlərlə görüşürdük. Nəticələr açıqlanan gün gecə saat üçdə yatmışam. Bütün valideynlərlə danışıb təbrik etmişəm. O qədər sevincli idik ki... Sistem donduğu üçün bəzi şagirdlərin nəticəsini gec bildik. Sonuncunu da öyrənib təbrik edənə qədər gözləmişəm. Şagirdlərimin uğurları mənim uğurumdur”.

Ramin müəllim onları universitet həyatında da dəstəkləyir. Deyir ki, işimiz onların məzun olması ilə bitmir: “Hazırda universitetlərə qeydiyyatlarını edirik. Hətta şagirdlərimizdən biri Gəncəyə düşdüyü üçün onun yataqxana məsələsini də birlikdə həll edir, digərlərinin ev məsələsinə kömək edirik. Bütün şagirdlərin yerləşməsinə qədər onlara məktəb olaraq dəstək oluruq. Onlar bizim övladlarımızdır, hər çətinliklərində müəllimləri olaraq yenə də arxalarında dayanmışıq”.

İNSULİN ÇATIŞMAZLIĞINA SON QOYMAQ ÜÇÜN YERLİ İSTEHSAL ARTIRILACAQ

# Şəkər xəstələrinə şad xəbər



Zərif Salmanlı
zarifsalmanli@kaspi.az

**Ölkəmizdə insulin çatışmazlığı faktı rəsmi olaraq təsdiqlənib. Şəkərli diabet xəstələrinin müvafiq dərman vasitəsi ilə təminatını yaxşılaşdırmaq üçün ölkə daxilində insulin istehsalına başlanılacaq.**




Rusiya şirkəti Azərbaycanda insulin istehsalına başlayacaq. Bu barədə Rusiyanın Azərbaycandakı ticarət nümayəndəsi Ruslan Mirsayapov məlumat verib. Onun sözlərinə görə, 2025-ci ildə Azərbaycanda tərəfdaş zavodun bazasında insulin istehsalına başlanılacaq.

Hazırda Azərbaycanda 300 mindən artıq diabet xəstəsi var. Son dörd ildə ikinci tip diabetə tutulanların sayı 224 mindən 291 min nəfərə qalxıb. Azərbaycanda insulin istehsalı üzrə zavodun tikilməsi niyyətini Böyük Britaniya da elan edib, İsrail isə bu dərmanın istehsalı üçün Azərbaycanda zavodun tikintisinə başlayıb.

### KEYFİYYƏT PARAMETRLƏRİNƏ UYĞUNLUĞU YOXLANILIR

Səhiyyə Nazirliyindən bildirildi ki, ölkəmizdə dərman istehsal edən zavodların fəaliyyətə başlaması yerli istehsalın inkişafına təkan verərək, dərmanların əhali üçün daha əlçatan olmasına xidmət edəcək.

Nazirliyin Analitik Ekspertiza Mərkəzindən isə bildirildi ki, hər bir dərman vasitəsi ölkə ərazisində istehsalına, idxalına, satışına və istifadəsinə icazə verilmədən öncə “Dərman vasitələrinin, dərman maddələrinin və tibb vasitələrinin dövlət qeydiyyatına alınması, dövlət reyestrinə daxil edilməsi və dövlət reyestrinin aparılması” Qaydalarına uyğun olaraq dövlət qeydiyyatına alınır: “Qeydiyyat zamanı həm sənəd toplusu şəklində, həm də laborator analizlər aparılmaqla dərman vasitəsinin istehsalçının təqdim etdiyi keyfiyyət parametrlərinə uyğunluğu yoxlanılır. Dərman vasitələrinin istehsalında keyfiyyət standartları ilkin olaraq istehsal müəssisəsinin lisenziyalaşdırılması zamanı və fəaliyyət göstərdiyi müddətdə qanunvericiliklə nəzərdə tutulan vaxt aralıqları ilə yoxlama əsasında müəyyən olunur. Həmin yoxlamalar zamanı dərman vasitələrinin istehsal müəssisəsinin Səhiyyə Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiqlənən Etibarlı İstehsalat Təcrübəsinə (ETİ-GMP) dair Tələblərə uyğunluğu müəyyənləşdirilir. Hər bir dərman vasitəsinin istehsalı zamanı onun keyfiyyətli, effektiv və təhlükəsiz olması əsas götürülür”.

### İNSULİNLƏR SADƏCƏ QABLAŞDIRILACAQ

Respublika Endokrinoloji Mərkəzin direktoru Nərmin İsmayılova isə bildirdi ki, Azərbaycandakı zavodda Rusiyadan gətirilən insulinlər sadəcə qablaşdırılacaq: “Mən həmin şirkətin zavodunda və elmi mərkəzində olmuşam. Orada hər şey standartlara tam uyğundur. Onların insulinləri daha müasir insulinlərdir, əks təsirləri daha azdır, istifadəsi də asandır. Onlar burada yaradacaqları zavodda insulini sıfırdan hazırlamayacaqlar. Orada yalnız qablaşdırılması həyata keçiriləcək. Bu, yerli istehsalın ilkin mərhələsidir. Bu zavod ölkəmizdə bir neçə ildir fəaliyyətdədir. Orada müxtəlif dərman preparatları qablaşdırılır. İnsulin də o cür olacaq. Dərman haqqında olan bütün məlumatlar, onun tərkibi və sair öz dilimizdə yazılacaq. Bir neçə il keçdikdən sonra insulinin orada tam istehsalı da həyata keçirilə bilər”.

## GÜNDƏLİK DOZANIN 40 FAİZİ VERİLİR

N.İsmayılova qeyd etdi ki, bu sahədəki ən böyük problem odur ki, hazırda şəkər xəstələrini dərmanla tam təmin edə bilmirlər: “Azərbaycanda insulin şəkər xəstələrinin bir qisminə dövlət hesabına verilir. Yalnız 18 yaşına qədər uşaqlar insulinlə tam təmin edilirlər. Daha yaxşı olar ki, təminat tam olsun. Bununla bağlı müraciət də ünvanlamışıq. Qeyd etmişik ki, ikinci tip xəstələr 60, birinci tip xəstələr 80 faiz dərmanla təmin edilməlidirlər. Düşünürük ki, gələn ilin əvvəlinə bu məsələ həll olunacaq. Ölkədə qablaşdırılacaq insulinlərin qiyməti daha ucuz olduğundan buna maliyyə imkanı da olacaq”.

## XAMMALI ETİBARLI OLMALIDIR

Sosial-strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynlinin fikrincə, ölkəmizdə insulin qıtlığı olduğu üçün istehsala ehtiyac var: “Şəkər xəstələri üçün insulinin və digər diabetik preparatların istehsalına sərmayə, investisiya yatırılması ölkəmiz üçün çox müsbət bir hal kimi dəyərləndirmək lazımdır. Hansı ölkələrdə ki dərman preparatları istehsal olunmur, orada tələbatda qıtlıq yaranır. Eyni zamanda, qiymət də baha olur. İstehsal etmək idxaldan daha uğurludur. Dərman qıtlığının aradan qaldırılmasında istehsalın xüsusi rolu var”.

İ.Hüseynli istehsal olunacaq insulinin keyfiyyətindən də danışdı: “Keyfiyyətdə istehsal prosesi, texnologiyaların yeniliyi əsas götürülməlidir. İnsulinin əldə edildiyi xammal da kifayət qədər etibarlı olmalıdır ki, keyfiyyət baxımından bütün standartlara cavab versin”.

Ekspertin sözlərinə görə, yeni zavodda digər dərman preparatlarının da istehsal edilməsi səhiyyəmiz üçün uğurlu olar: “Bu sahədəki ən uğurlu addım istehsal şirkətlərinin, zavodların sayını artırmaqdır. Sürətlə istehsal prosesinə başlanılmalıdır. Elə texnologiya qurulmalıdır ki, orada yalnız insulin deyil, digər həyati əhəmiyyətli dərman preparatları da istehsal olunsun. Bununla şəkər əleyhinə olan dərman preparatları ilə bağlı problemləri aradan qaldıra bilərik”.

İnsulin istehsalını həyata keçirəcək şirkətindən sorğumuza cavab olaraq bildirildi ki, Azərbaycanda istehsal olunan məhsulların keyfiyyət beynəlxalq standartlara tam uyğun olacaq.



Nərmin İsmayılova



İlqar Hüseynli

# "İTALİYA ÇƏKMƏSİNİN BURNU"NDAN REPORTAJ

Kataniya - mavi İon dənizinin sahilində, donmuş vulkanik lavanın qara daşları arasında yerləşən liman şəhəridir. Bu şəhərə "İtaliya çəkməsinin burnu" da deyilir.



## TURİSTLƏR KARLEONE AİLƏSİNİN İZİNƏ DÜŞÜRLƏR



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Üçbucaqlı Siciliya adasına -Kataniya şəhərinə səyahətimiz macəra ilə başladı. Romanın Fiumiçino Hava Limanından transfer zamanı baqajımızın itməsi əhvalımızı pozsa da, qarşıdakı günlər füsunkar adadan aldığımız təəssüratlar bizə unudulmaz anlar yaşatdı.

Kataniya - mavi İon dənizinin sahilində, donmuş vulkanik lavanın qara daşları arasında yerləşən liman şəhəridir. Bu şəhərə "İtaliya çəkməsinin burnu" da deyilir.

### ETNANIN MÖCÜZƏSİ

Şəhərin qədim küçələrini gəzdikcə adamı Kataniyanın keçmişi və bu günü haqqında hekayələr, eləcə də yerli mədəniyyətin ayrılmaz hissəsinə çevrilmiş yunan mifləri müşayiət edir. Şəhər 1169-cu ildə baş verən zəlzələ nəticəsində tamamilə məhv olsa da, Etna dağının güclü püskürməsi zamanı lava və küldən yenidən canlanıb. Çəhrayı badam ağacları, qırmızı püstə kolları, ərik bağları, bərkimiş vulkanik lava ilə döşənmiş və barokko memarlıq nümunələri ilə bəzədilmiş şəhərə çevrilib.

Vulkan dəfələrlə şəhəri dağıdıb, amma Kataniya zümrüd quşu kimi yenidən doğulub. Memarlıq nöqteyi-nəzərindən baxsanız, Kataniya məhz qara vulkanik daşdan, barokko üslubunda binalarının rənginə görə İtaliyanın ən qeyri-adi şəhərlərindən biridir. Burada sakinlər Avropanın ən aktiv və böyük vulkanı ilə mürəkkəb münasibətlərə malikdirlər.

Şəhərin küçələrində qara qumlar görünür, havada toz hiss edilir. Ancaq italyanlar lavanı düzgün istiqamətləndirməyi, yolların və binaların tikildiyi tikinti materialına çevirməyi öyrəniblər.

### MAFİYANIN SİNONİMİ

Kataniya möhtəşəm sarayları, dəbdəbəli kilsələri ilə zəngindir. Massimo Bellini Teatrının qarşısında axşamlar ifa edən orkestrin sədaları bütün şəhərdə eşidilir. Siciliyanın bu liman şəhərinin adı "mafiyanın sinonimi" kimi çəkilsə də, bəstəkar Vinçenzo Bellini bu şəhər üçün ən dəyərli şəxsiyyət hesab edilir. Hava limanından tutmuş şəhəri bəzəyən memarlıq nümunələrinə qədər görkəmli bəstəkarın adını daşıyır. "Sinyor Bellini dünya musiqisinə 11 möhtəşəm opera bəxş edib",- deyə cənublular qürurla bildirirlər.

Hər bir Avropa şəhərində olduğu kimi, Kataniyada da ilk səyahət ediləcək yer köhnə şəhərdir. Şəhərin mərkəzi kafedralların və meydanların tikildiyi tünd lava və açıq qum daşının kontrastına görə UNESCO tərəfindən qorunur. Meydanın mərkəzində şəhərin simvolu - "Fontana dell Elefante" adlı gülən fəvvarə yer alıb. Kataniya sakinləri onun narahat Etnanı sakitləşdirmək üçün sehrli bir xüsusiyyətə sahib olduğuna inanırlar. Yerlilər Etna dağına canlı varlıq kimi baxırlar. Turizm şirkətləri Etnaya turlar təşkil edirlər (60-75 avro). "Əvvəllər turistlər buralara gəlməyə sanki ehtiyat edirdilər. Axı, Siciliya deyəndə ilk növbədə "mafiya" yada düşür. Ancaq sonradan dünya turistləri cənubda daha çox tarixin, mədəniyyətin və istiqanlı insanların olduğunu gördülər. Artıq buralar, xüsusən yay aylarında turistlərlə qaynayır", - deyə yerli sakin məlumat verir.

### BƏRƏKƏTLİ ADA TORPAĞI

Yerli italyanların yaşayışına bələd olmaq üçün tarixi bazara baş çəkmək lazımdır. Bazarda heç vaxt rastlaşmadığımız meyvə və tərəvəz, evdə hazırlanmış pendir və digər ərzaqların, şərab və balıq çeşidlərinin dadına baxmaq fürsəti də verilir. "Ada torpağı bərəkətlidir",- yerli italyanlar belə deyirlər: "Qəzəbli vulkan hər 150 ildə bir dəfə bir kəndi məhv edir. Lakin insanlar Etnanı tərk etmirlər, çünki onun sayəsində yerli torpaq inanılmaz dərəcədə münbitdir. Bu, kataniyalıları dönə-dönə burada məskunlaşmağa məcbur edir. Siciliyadakı ən dadlı tərəvəz və meyvələr Kataniya yaxınlığında yetişir. Buna görə Kataniyaya - "Etnanın qızı" da deyirlər".

Kataniyanın labirintlərində hər addımda kafelərlə qarşılaşırsan. Pizza, spagetti, ən təzə inqrediyentlərlə zəngin paninilərin qiyməti 10-25 avro arası dəyişir.

İyul-avqust aylarında dükanlarda olan endirimlər turistlər üçün alış-verişi əyləncəli macəraya çevirir. Siciliya günəşinin yandırıcı istisindən qaçıb dükanlarda daldalananlar da az deyil.

Kataniya çimərlikləri isə tərtəmiz, zümrüd suları ilə turistlərin ən sevimli istirahət məkanlarıdır.

### İNSANLARI TƏLƏSMƏYƏN ŞƏHƏR

Cənublular şən, səs-küylü, ünsiyyətcil insanlardır. Danışmağı daha çox xoşlayırlar. Hətta qarşısındakı italyan dilini bilməsə də, azacıq ünsiyyətdən sonra köhnə tanışın kimi danışır.

Gün batmağa yaxın yerli sakinlər dəniz sahilində toplaşırlar. Onları seyr etmək xüsusi zövq verir. Burada bir neçə nəsil görüşür: uşaqlar qaçışır, gənclər əl-ələ tutub söhbət edir, qocalar kart oynayır, itləri ilə gəzir, balıq tuturlar. Bu şəhərdə insanlar tələsmir. Amma miqrant axınından sonra digər şəhərlərdə olduğu kimi Kataniya və ətraf ərazilərdə də oğurluq, küçələrin zibillənməsi kimi hallar çoxalıb.

Kataniyada metro yoxdur. Amma şəhərdaxili və şəhərətrafı nəqliyyat - avtobus və qatarların hərəkət cədvəli mükəmməl qurulub. Təcrübəli turistlər də bu fürsətdən istifadə edib rahatlıqla səyahət marşrutlarına Kataniya yaxınlığında Taormina, Sirakuza və Messina kimi füsunkar şəhərləri daxil edirlər.

Taormina - adanın əfsanəvi kurort şəhəridir. "Siciliyanın gözəli" bizi də məftun edir. Üç min illik keçmişə sahib şəhər Siciliyanın kiçildilmiş tarixi, əsrlərdir sənətin ürəyinin döyündüyü yer hesab edilir. Taormina bəzi mənbələrdə "Aralıq dənizinin incisi" də adlandırılıb. Dünyaca məşhur "Xaç atası" filminin çəkilişləri Taormina və onun ətrafında gerçəkləşib. Turistlər burada Karleone ailəsinin izinə düşürlər.

Sirakuza - Siciliyanın tarixi şəhəridir. Yunan tarixçiləri buranı "ən böyük yunan şəhəri" adlandırıblar. Ərəblər adanı zəbt edənə qədər Siciliyanın paytaxtı olub.

2005-ci ildə UNESKO şəhəri bütünlüklə Dünya İrsi Siyahısına daxil edib. Böyük alim Arximed də bu şəhərdə doğulub.

Messina - adanın ən böyük limanıdır. Siciliyanın "dəniz qapısı" da adlanır. Bu şəhərdə Homerin mifik qəhrəmanlarının yaşadığı, əfsanəvi Odisseyin bu sularda üzdüyü deyilir. 1908-ci ildə dəhşətli sunami nəticəsində dağılan, 1943-cü ildə ABŞ-nin bombardmanı nəticəsində zədələnmiş, zəlzələdən zərər görmüş şəhər bu gün tarixiliyi və müasirliyi birləşdirməklə gələn qonaqlarını valeh edir.



# EKOLOJİ MƏDƏNİYYƏTSİZLİKDƏN XƏBƏR VERƏN DAVRANIŞ

Ekoloqlar həyəcan təbili çalır. Səbəb qoynunda istirahət etdiyimiz təbiətə vurduğumuz ziyan, ətraf mühiti çirkləndirməyimizdir. Çox təəssüf ki, eyni mənzərə işğaldan azad olunmuş ərazilərimizdə də müşahidə edilir.

SEVİNC ABBASOVA

Daha bir yay turizm mövsümü başa çatır. Mövsümün yekunlarına nəzər yetirərkən ənənəvi problemlərdən biri kimi məişət tullantıları ilə bağlı vəziyyət diqqət çəkir. Müşahidələr göstərir ki, əksər turizm rayonlarında insanların kütləvi istirahət etdikləri yerlərdə zibil qabları yoxdur. İnsanlar piknikdən sonra tullantıları elə orada da qoyaraq gedirlər. Zibillərini aparanlar isə onları atmaq üçün konteyner tapa bilmirlər. Nəticədə turizm bölgələrində xoşagəlməz mənzərə yaranır. Artıq işğaldan azad edilmiş rayonlarda da eyni mənzərənin şahidi oluruq.

Bəs, görəsən, mövcud problemin həlli yolları nədən ibarətdir? Bu məsələdə dövlət qurumları, yoxsa vətəndaşlar məsuliyyət daşıyırlar?

### “EKOLOJİ MƏDƏNİYYƏTİMİZ LAZIMİ SƏVİYYƏDƏ DEYİL”

“Ekostil-Azərbaycan” Təbiəti Mühafizə İctimai Birliyinin sədri, dosent Elman Yusifov deyib ki, insanlar arasında ekoloji mədəniyyət yüksəldikcə, ətraf mühiti çirkləndirənlərin sayı əhəmiyyətli dərəcədə azalacaq: “Bu gün bizim ekoloji mədəniyyətimiz lazımi səviyyədə deyil. Ekoloji maarifləndirmə birbaşa ekoloji tərbiyə ilə bağlıdır. Bu tərbiyə isə ailədə formalaşır. Ekoloji tərbiyə ümumi tərbiyənin tərkib hissəsidir. Ona görə də hər şey ailədən başlamalıdır. Sonra bu istiqamətdə bilgilər uşaq bağçalarında, məktəblərdə öyrədilməlidir. Yekun nəticədə insanın ekoloji əxlaqı formalaşır. Nə zaman ki, biz təbiəti də evimiz kimi qəbul edəcəyik, hər şey o zaman düzələcək. Bunun üçün biz az səbr, bir az da sistemli işləmək lazımdır”.



Elman Yusifov

Mayın əvvəlindən iyulun sonuna kimi ölkədə 134 kütləvi təmizlik aksiyası çərçivəsində

**56 min 833 kq**

**tullantı ərazilərdən daşınıb**



## EKOLOJİ POLİSİN YARADILMASI TƏKLİF EDİLİR

“Səma və Eko” Sosial İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova hesab edir ki, bu istiqamətdə cərimələrin artırılmasına ehtiyac var: “Zibil qutuları olmaya bilər. Amma bəzən müşahidə edirik ki, hətta zibil konteyneri olan ərazilərdə də ətrafa məişət tullantıları atılır. Bizdə ictimai qınaq da zəifdir. Bəzən irad tutduğun insan sənə elə cavab verir ki, dəhşətə gəlirsən. Problemin həlli ancaq cərimələrin miqdarını artırılmaqla mümkün ola bilər. Artıq ekoloji polisin fəaliyyətə başlamasının zamanı yetişib”.

### BAŞQALARININ ÜZƏRİNƏ ATILAN MƏSULİYYƏT

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov isə bu fikirdədir ki, bəzən insanlar öz məsuliyyətini başqalarının üzərinə atmağa çalışırlar: “Bu məsələdə hər kəs vətəndaşlıq borcunu ortaya qoymalıdır. Ola bilsin ki, dövlət qurumu sənin istirahət etdiyin yerə zibil konteyneri yerləşdirməyib. Bu o demək deyil ki, zibili ətrafa tullamaq lazımdır. Həmin zibili bir torbaya yığıb ən yaxın konteynerə atmaq olar. Sadəcə, bunu etmək istəmirlər. Tullantıları istirahət etdikləri yerdə qoyub gedirlər. Sonra da deyirlər ki, bu dövlətin məsuliyyətindədir və aidiyyəti qurumlar gəlib yığışdırsınlar. Biz vətəndaş olaraq da öz məsuliyyətimizi dərk etməliyik”.



İradə Həsənova

## YAYDA TƏBİƏTƏ ANTROPOGEN TƏSİRLƏR ARTIR

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji maarifləndirmə və kommunikasiya şöbəsinin müdiri Səyyarə Məmmədova deyib ki, yay mövsümü təbiətin daha çox yükləndiyi dövr hesab olunur. Onun sözlərinə görə, yay aylarında ətraf mühitə qarşı antropogen təsirlər xeyli artır: “İnsanlar təbiətə üz tutur, ətraf mühitin gözəlliklərində zövq almağa çalışırlar. Lakin əfsuslar olsun ki, həmin əraziləri, gözəllikləri çirkləndirərək geri dönürük”.

Şöbə müdiri bildirib ki, nazirlik tərəfindən bütün il boyu tullantıların idarə olunması, çeşidlənməsi istiqamətində tədbirlər həyata keçirilir, təbliğat, maarifləndirmə işləri aparılır: “Yay mövsümündə biz bu çağırışları daha çox artırırıq. May ayının əvvəlindən “Təmiz ölkəm” layihəsi çərçivəsində təmizlik aksiyaları başlayıb. Əvvəllər həftədə bir dəfə təşkil olunan aksiyalar artıq həftədə iki dəfə keçirilir. Bu aksiyalarda vətəndaş cəmiyyəti institutları, dövlət qurumları, özəl təşkilatlar, könüllülər fəal iştirak edirlər. Belə kütləvi tədbirləri keçirməklə vətəndaşlarımıza çağırış edir, təbiət ərazilərini təmiz saxlamağa, ətraf mühitə öz evi kimi yanaşmağa təşviq edirik. Məqsəd insanların təbiətə münasibətini dəyişməkdir. İnsanlar istirahət zamanı gətirdikləri ərzaqları, əşyaları sonradan tullantı kimi həmin ərazidə qoymamalıdırlar. Bəzən insanların 2-3 addım yaxınlığında tullantı qabı olduğu halda ətrafın çirkləndirildiyinin şahidi oluruq. Yəni, ətraf mühitin çirkləndirilməsinə səbəb tullantı qablarının azlığı və ya heç olmaması deyil, sadəcə, insanlarda təbiətə humanist yanaşma mövcud deyil. Ətrafda tullantı qabı yoxdur deyə, təbiəti çirkləndirmək səbəb deyil, laqeyd yanaşmadır. Əfsuslar olsun ki, təbiətə etdiyimiz hər bir neqativ addım bumeranq kimi özümüzə qayıdır. Yaranmış antisanitariya, torpağın çirklənməsi yenə də insan orqanizminə mənfi təsir göstərir”.



Səyyarə Məmmədova

### 56 MİN 833 KİLOQRAM TULLANTI ƏRAZİLƏRDƏN DAŞINIB

Nazirlik rəsmisi vurğulayıb ki, mayın əvvəlindən iyulun sonuna kimi ölkədə 134 kütləvi təmizlik aksiyası təşkil olunub: “Bu aksiyalar çərçivəsində 56 min 833 kiloqram tullantı ərazilərdən daşınıb. Aksiyalar hazırda da davam etdirilir. Bundan əlavə, ictimaiyyətə yönəlik “Tullantıları tinglərə dəyiş”, “Tullantıları ekoçantaya dəyiş” aksiyaları keçirilir. Bu aksiyaların məqsədi məişət tullantılarının artıq evdən çeşidlənmə prosesinə təşviq olunmasıdır. Eyni zamanda, insanlar həmin tullantıları təhvil verəndən sonra hədiyyə olaraq ekoçanta əldə edirlər. Bundan başqa, müxtəlif təşkilatların dəstəyi ilə “Tullantıları hədiyyələrə dəyiş” aksiyası da təşkil olunur. Vətəndaşlarımız bu kimi aksiyalarda səvə-səvə iştirak edirlər”.



Amin Məmmədov

# BİR ZARAFATA GÖRƏ BAŞI BƏLALAR ÇƏKMİŞ AKTYOR

**Kino və teatr aktyoru Fazil Salayev cəmi 46 il yaşasa da oynadığı rolları, dərin yumor hissi ilə tamaşaçıların yaddaşında əbədi qalıb. İllər keçsə də, onun yaratdığı rollara və filmlərə maraq itməyib.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Fazil Salayevin təkcə Mirmahmud Kazımovskinin "Molla Cəbi" vodevilində oynadığı Əlican rolu kifayətdir ki, bir aktyor kimi haqqında fikir bildirəsən. Aktyorun "Molla əmi..." ifadəsi bu gün də dillər əzbəridir...."

Kino və teatr aktyoru Fazil Salayev cəmi 46 il yaşasa da oynadığı rolları, dərin yumor hissi ilə tamaşaçıların yaddaşında əbədi qalıb. İllər keçsə də, onun yaratdığı rollara və filmlərə maraq itməyib.

Sentyabrın 1-i – Fazil Salayevin doğum günü ərəfəsində mərhum aktyoru sənət yoldaşları ilə andıq:

**FAZİLİN OYUNLARI**

"Fazil Salayev rejissor Tofiq Kazımovun tələbəsi olub", - deyə qocaman aktyor Rafiq Əzimov xatırlayır: "Onun yaxşı rəssamlıq qabiliyyəti də vardı. Hətta vaxtilə məktəbdə rəssamlıqdan dərs demişdi. Gözəl musiqi qabiliyyətinə də malik idi. Eşitdiyimə görə, sirkdə işləyən vaxtları da olub. Fazilin piano arxasında xalq mahnılarımızı məharətlə ifa etməsi adamı heyran edirdi. "Azdrama"da bir çox tamaşada mənimlə tərəf-müqabil olub. Onun epizodik rolları da yaddaqalan idi. Böyük istedada malik bir insan, təbii, məzəli, ürəkaçan adam idi. Onunla gecə-gündüz söhbət etsəydin yenə də yumorundan yorulmazdın". R.Əzimov sənət yoldaşının başına gələn hadisələrdən danışır: "Biz sovet dövründə festivallara hazırlaşırdıq. Fazil bolqar dramaturqu Kostovun "Falçı" əsərində maraqlı bir epizodda oynadı. Buna görə onun başına xoşagəlməz hadisə də gəldi. Məşq dövründə rolu ilə əlaqədar yoxlama gəldi. "Siyasətlə məşğul olanlar kimlərdir?"- deyə aktyorların evlərində və ciblərində axtarış aparırdılar. Məşq vaxtı Fazilin cibindən rekvizitdən aldığı bir qəzet parçası çıxdı. Qəzetin bir hissəsi tamaşaçı salonu tərəfə düşür. Aktyor "Bu fırıldaqçıları deyirsiniz?"- deyə soruşur. Sən demə, qəzetin digər üzündə Leninin şəkli varmış. Bu hadisə dildən-dilə düşür. Həmin qəzet parçası onun başına bəla gətirir. Fazilin məsələsini iclasa qoyurlar. Teatrda onun işdən qovulması məsələsini qaldırırlar. Onda mən Tofiq Kazımovun yanına gedib "Fazil sizin tələbəniz olub. Ona dəstək olun", - deyə xahiş elədim. "Mən o adamlarla bacarmıram", - deyə Tofiq Kazımov bildirdi. Fazili işdən çıxardılar. O, həmin ərəfədə məktəbdə rəsmxət müəllimi işlədi".

**"BÜTÜN ROLLARI REAL HƏYAT LÖVHƏLƏRİNİ ƏKS ETDİRİRDİ"**

R.Əzimov həmkarını son dərəcə istedadlı aktyor kimi dəyərləndirir: "Fazil hər bir kiçik obrazında virtuoz aktyor kimi özünü sübut edirdi. O, elə oynayırdı ki, tamaşaçı uğunub gedirdi. Bütün rolları real həyat lövhələrini əks etdirirdi. Nə qədər məzəli, satirik, yumoristik səpkidə olsa da, onun ifasında əndazəni aşan şitlik, saxta gülüş yox idi. Obrazlarının hər birində Fazilin səmimiyyəti və yaradıcılıq axtarışları vardı. Fazil kinoda ilk rolunu 32 yaşında oynadı. Rejissor Həsən Seyidbəyli onu "Möcüzələr adası" filmində epizodik rola dəvət edir. Bu roldan sonra onun qarşısında sanki yeni üfüqlər açılır. Fazilin qırçı Məhəmməd, Qulaməli, çilingər, "zontik Mehdi" rolları bir-birindən maraqlı və yaddaqalan olur. Filmdən-filmə rolları dəyişirdi. "Mozalan" satirik kinojurnalında yaratdığı tipajları da çox məşhur idi. O, metroya baxmağa cəhd göstərən sərxoş obrazını necə böyük istedadla yaratmışdı...".

**"BİZƏ ÇAY GƏTİRSƏ DƏ, FAZİLƏ ÇAY QOYMADI"**

R.Əzimov deyir ki, onların evinə tez-tez qonaq gedərmişlər: "Fazilgilin evləri teatrın yanında idi. Bir gün yenə işdən gec çıxmışdıq. Ehtiyat edir ki, həyat yoldaşı Fəridə xanım yenə gileylənməyə başlayacaq. Mən və Hamlet Xanızadə də onunla birlikdə evlərinə gəldik. Həyat yoldaşı bizi xoş qarşıladı. Bizə çay gətirsə də, Fazilə çay qoymadı. Biz vəziyyəti düzəltməyə çalışdıq: "Bu, aktyor həyatıdır, tamaşalar, məşqlər. Həmişə evə tez gəlmək olmur..." kimi cümlələr deməklə həyat yoldaşının könlünü almağa çalışdıq. Fazil isə piano arxasına keçib virtuoz çalğısı ilə həyat yoldaşının könlünü almağı bacardı".

Rejissor Əbdül Mahmudov da Fazil Salayevin peşəkar musiqiçi və rəssam olduğunu xatırladır: "O, Asəf Zeynallı adına Musiqi Məktəbini, Əzim Əzimzadə adına Rəssamlıq məktəbini bitirmişdi. Daha sonra Teatr İnstitutunun dram-kino aktyorluğu fakültəsini qurtarmışdı. Tanrının ona verdiyi böyük istedada baxmayaraq, təvazökar idi. Bir məclisə gələndə keçib arxada oturardı. Heç vaxt özü haqqında danışmazdı. Piano arxasına keçib qədim musiqilərimizi ifa etməsini görərdiniz! Onda gözəl kompozisiya duyumu vardı". Rejissor mərhum aktyorun rəssamlıq istedadından danışır: "Nəsimi" filminin Naxçıvanda, Əlincədə çəkilişləri gedirdi. Təsəvvür edin: isti hava, ağır geyimlər, çətin şərait... Fazil bütün bunlara baxmayaraq əhvalını pozmurdu. Yanında gəzdirdiyi dəftərdə gördüyü şeylərin cizgilərini çəkirdi. Hamıya da "canik" deyirdi. Bir gün mənə yaxınlaşdı: "Sən dərviş geyimində, qayanın dibində oturmuşdun. Axşam qürub çağı idi. Əlincə qalasının fonunda sənin cizgilərini çəkdim", -dedi. Onun işinə heyran oldum. Möhtəşəm rəsm alınmışdı. Mən o günə qədər Fazilin rəssam olduğunu bilmirdim. Həmin bloknotu mənə bağışladı. Təəssüflənirəm ki, o rəsmi Fazilin əl işi kimi qoruya bilmədim, itirdim".

**"HƏYATDA DA ÇOX MARAQLI ADAM İDİ"**

Ə.Mahmudov həmkarının təkrarolunmaz aktyor olduğunu deyir: "Fazil son dərəcə istedadlı aktyor idi. Onun bir kəlməlik sözündə də böyük aktyor oyunu vardı. Fazil harada vardısa orda təkrarolunmaz bir yenilik vardı. Həyatda da çox maraqlı adam idi. Son illər bir az içkiyə meyilli idi. Ancaq kimdənsə nəsə ummazdı". Ə.Mahmudov mərhum aktyorun sağlığında layiqli dəyərini almadığını da təəssüflə deyir: "Mən üç sənətkarı - Səməndər Rzayevi, Ceyhun Mirzəyevi və Fazil Salayevi bir-birindən ayırmıram. Bu üç sənətkarın heç biri sağlıqlarında haqlarını almadılar. Heç olmasa indi versinlər..."




Foto: Tapdıq Abdullayev-Global Media Group

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
31 AVQUST ŞƏNBƏ 2024
www.kaspi.az



# KLUBLARIMIZIN PUL QAZANMAQ PERSPEKTİVLƏRİ



**Azərbaycan klublarının bir çoxu marketinq istiqamətinin vacibliyini dərk etmirlər və bununla bağlı xüsusi departamentləri yoxdur. Klublarımız bir qayda olaraq oyunlara azarkeşlərin gəlmədiyindən gileylənir. Eyni zamanda vəziyyəti dəyişmək üçün addım atmırlar.**

Müasir dövrdə futbol ayrıca bir sənaye sahəsidir. Artıq burada 10 milyonluq müqavilələr adiləşib, bəzi yarışların təkcə yayım hüququndan milyardlar əldə edilir. Xüsusilə, Qərbi Avropa futbolu bu baxımdan fərqli səviyyə müəyyənləşdirib. "Köhnə qitə"nin böyük klublarına dünyanın dörd bir yanından investorlar sərmayə yatırırlar. Çünki Avropada futbol çox gəlirli biznes sahəsidir, yatırılan pullar tez bir zamanda artıqlaması ilə geri qayıdır.

### AZƏRBAYCANDA VƏZİYYƏT NECƏDİR?

Heç kimə sirr deyil ki, ölkəmizdə futbol klublarının əksəriyyətinin varlığı birbaşa dövlət tərəfindən bu sahəyə ayrılan maliyyə yardımları ilə mümkündür. Hazırda Premyer Liqa klublarına illik üç milyon manat, I Liqa klublarına 300 min manat, II Liqa klublarına isə 50 min manat dotasiya ayrılır. Əlbəttə, dövlətin futbol klublarına dəstək göstərməsi bu sahənin dirçəlməsi üçün böyük əhəmiyyət kəsb edir. Lakin təəssüf ki, klublarımızın əksəriyyəti təkcə həmin maliyyə yardımı ilə kifayətlənirlər. Bu isə yalnız cari mövsümü birtəhər başa vurmağa kifayət edir, uzunmüddətli fəaliyyət üçün bəs deyil. Yekunda dayanıqlı klub modeli formalaşmır və dövlətdən gələn maliyyə dayandırılacağı halda futbol klublarımızdan bir çoxu sadəcə yoxa çıxmaq təhlükəsi ilə üz-üzə qalacaqlar.

Dünya futbolunda klubların əsas gəlir mənbələrindən biri transfer əməliyyatlarıdır. Azərbaycanda az hallarda klublar oyunçu satışından pul qazana bilir. Əslində, potensiala yatırım edilsə, bu, tezliklə effektini verəcək. Ortayaşlı və ya yaşlı legionerlərdənsə, klublarımız çox aşağı məbləğlər qarşılığında potensiallı gəncləri cəlb edə və bir neçə ilə onların satışından müəyyən məbləğ qazana bilərlər. Təəssüf ki, skaut sisteminin zəif olması buna mane olur.

## YOX DƏRƏCƏSİNDƏ OLAN MARKETİNQ FƏALİYYƏTİ

Problem ondadır ki, Azərbaycan klublarının bir çoxu marketinq istiqamətinin vacibliyini dərk etmirlər və bununla bağlı xüsusi departamentləri yoxdur. Klublarımız bir qayda olaraq oyunlara azarkeşlərin gəlmədiyindən gileylənirlər. Azarkeş stadiona təkcə yaxşı futbola və ya nəticəyə görə gəlmir. Klublar onlarla emosional bağ yaratmağı bacarmırlar. Avrokubok oyunlarında əksər hallarda tam dolan stadionlar çempionat matçlarında boş görünürlər. Məsələ ondadır ki, insanlar beynəlxalq matçlara daha çox Azərbaycan adına görə gedirlər. Klublar brend olmadığı üçün ölkədaxili yarışlarda eyni tendensiya müşahidə olunmur. Eyni zamanda, daxili liqaların marka dəyəri çox aşağıdır. Azərbaycan Premyer Liqasında turun mərkəzi oyunu anlayışı Türkiyənin böyük klublarından hansısa birinin adi Super Liqa matçına uduzur.

### KLUBLAR BRENDLƏŞMƏLİDİRLƏR

Deməli, liqaların marka dəyəri artırılmalı, klublar brendləşməli, birbaşa insanların hisslərinə toxunan addımlar atılmalıdır ki, onlar stadionlara cəlb olunsunlar. İnsafən, bəzi klublar bu baxımdan müəyyən addımlar atırlar. Məsələn, "Sabah"ın, "Neftçi"nin marketinq fəaliyyətləri diqqət çəkir. Bu klublarla yanaşı, "Qarabağ"ın da fan-şopu fəaliyyət göstərir. "Turan Tovuz" son zamanlar azarkeşlərin stadiona cəlbi üçün bəzi addımlar atır. Bu ildən II Liqada çıxış edəcək "Hypers" klubu bölgənin potensialını dəyərləndirmək məqsədilə Qubaya köçüb və orada müəyyən addımlar atmağa başlayıb. Lakin bunlar çox kiçik nümunələrdir və qalaq-qalaq problemlərin fonunda cüzi görünürlər. Hələ də əksər klublarımız heç ev oyunlarına bilet satışı belə təşkil etmirlər. Halbuki dünya futbolunda ən gəlirli sahələrdən biri də budur.

## AZARKEŞLƏR TRİBUNALARA QAYTARILMALIDIR

Azərbaycan futbolunda ən böyük problemlərdən biri bu sahəyə sponsor cəlb olunmasıdır. Bir neçə il əvvəl AFFA Futbolun İnkişafı Fondunu (FİF) yaratdı və bu fondun vasitəçiliyi ilə bir sıra klublar iri-xırdalı şirkətlərlə anlaşma əldə etdilər. Sadəcə, investorları futbolun gəlirli sahə ola biləcəyinə inandırmaq lazımdır.

Ən vacib məsələ azarkeşlərin tribunalara qaytarılmasıdır. Ona görə qaytarılması yazırıq ki, təxminən 15 il əvvəl ölkə çempionatı matçlarının bir çoxunda böyük izləyici kütləsi olurdu. Sonradan rəqabətin aşağı düşməsi, bəzi bölgələrin futbolsuz qalması fanatların da yoxa çıxmasına səbəb oldu. Azarkeşlərin stadionlara qaytarılması üçün klub onlarla arada xüsusi dəyərlər yaratmalıdır.

Azarkeş probleminin həll edilməsi ilə bilet satışından, stadionda ketrinq xidmətindən büdcəyə müəyyən daxilolmalar olacaq. İnsanların stadionlara axışması potensial investorların da diqqətini cəlb edəcək. Heç kim boş tribunalar qarşısında oynayan kluba pul ayırmağa isti yanaşmır. Əslində doğru, planlı və ardıcıl addımlar atılmaqla ölkə futbolunda müəyyən qədər biznes mühitinin formalaşdırılması elə də çətin görünmür. Ancaq ilk növbədə bu prosesə start vermək lazımdır. Biz hələ başlanğıc mərhələsinə çatmamışıq.